6 iyul 2022 №50 (1923)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri necə gedir?

### Dövlət qurumlarının rəhbər şəxslərindən ibarət heyət vəziyyətlə yerində tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, iyulun 5-də Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət heyət işğaldan azad olunmuş ərazilərə səfər edib.



Baş nazir və Prezident Administrasiyasının rəhbərinin başçılıq etdiyi heyət əvvəlcə Tərtər rayonunun Suqovuşan qəsəbəsində Vətən müharibəsi şəhidlərinin şərəfinə ucaldılmış abidəni ziyarət edib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra "Suqovuşan-1" Su Elektrik Stansiyası və Suqovuşan su anbarına baxış keçirilib, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev və Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov tərəfindən Azərbaycan Respublikası Prezidentinin tapşırıqları ilə bağlı görülən işlər barədə məlumatlar verilib.

Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova Suqovuşan qəsəbəsinin turizm inkişaf konsepsiyası barədə məruzə edib.

Heyət Suqovuşan qəsəbəsində turizm təyinatlı fərdi evlərdə aparılan təmir-bərpa işləri ilə də tanış olub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görülən işlər barədə məlumat verib.

davamı səh. 2-də

## Musiqinin "İpək Yolu" yenə Şəkidən keçəcək

7-9 iyul tarixində Şəkidə XI "İpək Yolu" Musiqi Festivalı keçiriləcək. 2010-cu ildə əsası qoyulan festival ikiillik məcburi fasilədən sonra yenidən musiqisevərləri bir araya gətirəcək.



İyulun 4-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) keçirilən mətbuat konfransında layihənin tarixindən söz açıldı, növbəti festivalın proqramı barədə məlumat verildi.

ABİ-nin sədri, festivalın bədii rəhbəri, Xalq artisti, professor Firəngiz Əlizadə bildirdi ki, 2020 və 2021-ci illərdə pandemiya səbəbindən keçirilməyən festival, nəhayət, işini bərpa edir. "İpək Yolu" festivalı bu il on birinci dəfə Şəkidə keçiriləcək.

Qeyd olundu ki, musiqi bayramı hər dəfə yeni ideyalarla zənginləşir. Bu dəfə festival bir az fərqli formatda təqdim olunsa da, əsas məqsəd qorunub saxlanılır: "Bildiyiniz kimi, 10 festivalı böyük uğurla keçirmişik. Bu festivallarda 36 ölkədən kollektivlər, tanınmış musiqiçilər, musiqişünas alimlər iştirak ediblər. Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə müxtəlif mədəniyyətlərin füsunkar təbiət qoynunda qovuşduğu məkanda yenə də Azərbaycan və dünya musiqi sənətinin parlaq nümunələrindən ibarət rəngarəng konsert proqramları təqdim ediləcək. Lakin builki festivalın keçirilməsinə qısa zaman ərzində qərar verildiyinə görə xarici ölkələrdən kollektivlərin dəvət edilməsi mümkün olmadı".

davamı səh. 2-də

## Tarixi torpaqlarımızdakı irs: İrəvandan Zəngəzuradək

İyulun 4-də "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" kitabının təqdimatı keçirilib. Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən ərsəyə gətirilən kitabda ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi, tarixi torpaqlarımızda maddi-mədəni irsin ermənilər tərəfindən qəsb edilməsi, 1988-1989-cu illər deportasiyası barədə ətraflı söz açılır.




Təqdimat mərasimində çıxış edən Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, Vətən müharibəsində Qələbə təkcə gələcəyimizə deyil, həm də keçmişimizə, tariximizə həssas münasibətə, onu yenidən qiymətləndirməyə fürsətlər yaradır. Bu Zəfər sayəsində yeni siyasi kimlik qazanan xalqımız indi İrəvana və Zəngəzura, Göyçəyə və bütün tarixi torpaqlara gedən yolları inşa edir, çoxəsrlik qan yaddaşını qaytarır və mənəvi-mənəvi intibahının yeni mərhələsinə qədəm qoyur. Prezident İlham Əliyevin "İrəvana qayıdacağıq, lakin dinc yolla" çağırışı hər hansı sülh razılaşmalarını gerçəkləşdirmək üçün taktiki təzyiq planından çox, uzağa gedən strateji dövlət kursudur.

Vurğulanıb ki, "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" kitabı təkcə hazırkı Ermənistanda azərbaycanlılara məxsus irsin məhv edilməsi və yer üzündən silinməsinin miqyasını, statistikasını göstərmir, həm də abidələrin daşıdığı yaddaşı, əfsanələri, inanc və hekayələri onların pasportu, ruhi və fiziki kimliyi ilə yenidən bərpa edir.

davamı səh. 3-də

## İslam Dünyası İrsi Siyahısında 34 ölkədən 473 tarix-mədəniyyət nümunəsi var

2019-2021-ci illərdə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) nəzdində fəaliyyət göstərən İslam Dünyası İrs Komitəsi (IWHC) ümumilikdə 350 tarixi mədəniyyət abidəsini İslam Dünyası İrsi Siyahısına (IWHL) daxil edib.

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bu barədə iyulun 4-də İslam Dünyası İrs Komitəsinin Rabatda (Mərakeş), təşkilatın qərargahında keçirilən 10-cu iclasında bildirib. O vurğulayıb ki, təşkilat İslam dünyasında maddi irs abidələrinin qeydiyyatı ilə yanaşı, onların mühafizəsini də prioritet vəzifə hesab edir. Bu məqsədlə ICESCO-ya üzv ölkələrin mütəxəssisləri üçün təlim kursları təşkil olunur, təcrübə mübadiləsi aparılır.

İslam Dünyası İrs Komitəsinin sədri Valid əl-Seyf təşkilata üzv ölkələrdə qeydə alınmış irs abidələrinin qeydiyyatı prosesindən bəhs edib, İslam ölkələrində tarixi abidələrdən ibarət xəritənin tərtib edildiyini diqqətə çatdırıb.

Komitənin iclasında İslam Dünyası İrsi Siyahısına əlavə ediləcək maddi irs abidələri ilə bağlı hesabat da təqdim olunub.



141 tarixi məkanın və mədəni elementin İslam Dünyası İrsi Siyahısına (ilkin və yekun siyahılar) daxil etmək qərara alınıb. Beləliklə, IWHL-də ümumi nümunə sayı 34 ölkədən 473 tarixi məkan və mədəniyyət elementinə çatıb. O cümlədən 49 element (21 tarixi yer və 28 mədəni element) yekun siyahıya salınıb.

Xatırladaq ki, 2019-cu ildə Azərbaycandan İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri də İslam Dünyası İrsi Siyahısına daxil edilib.

## Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında sülh üçün səylərini davam etdirir

Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcək.

Bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 4-də Azərbaycan Prezidenti İlham Əliyevlə telefon söhbətində deyib.

Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər müzakirə olunub. Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edərək, ölkəmizin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıqların real nəticələrə gətirib çıxaracağına ümidvar olduğunu ifadə edib.

## Nazirlikdə Macarıstan səfiri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyini diplomatik fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul edib.

Görüşdə iki ölkə arasında mədəni əməkdaşlıq, gələcəkdə əlaqələrin inkişafına töhfə verə biləcək, xalqlarımızın mədəni irsinin təbliğində rol oynayacaq layihələr ətrafında fikir mübadiləsi aparılıb.

səh. 3

## "Mədəni gənclik" layihəsinə yekun vuruldu

Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Mədəni gənclik" layihəsi başa çatıb.

Bu münasibətlə Bakı Dövlət Universitetində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və universitetin rektoru Elçin Babayevin tələbələrlə görüşü keçirildi.

səh. 7

## Mədəniyyət siyasəti böhranlar dövründə

Rumıniyanın paytaxtı Buxarestdə Mədəniyyət Siyasəti və Təmayülləri Kompendiumu Assosiasiyasının 5-ci assambleyası, "Mədəniyyət və mədəniyyət siyasəti böhranlar dövründə" adlı beynəlxalq konfrans və kompendium ekspertlərinin illik görüşü təşkil olunub.

Assosiasiya ilə Rumıniyanın Mədəni Tədqiqatlar və Təlimlər üzrə Milli İnstitutunun birgə keçirdiyi tədbirlərdə Mədəniyyət Nazirliyi də təmsil olunub.

səh. 3

## Azərbaycanlı rəssamların əsərləri Londonda nümayiş olunur

Azərbaycan-Böyük Britaniya diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Londondakı Yunus Əmrə İnstitutunda "The Art of Diplomacy" ("Diplomatiya sənəti") adlı sərgi açılıb.



"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzi tərəfindən təşkil edilən sərgidə 22 azərbaycanlı rəssamın 56 əsəri yer alıb.

Mərkəzin direktoru İslam Baxşəliyev Azərbaycan mədəniyyətinin Londonda və digər ölkələrdə tanıdılmasının əhəmiyyətindən danışıb, indiyədək Avropanın 20-yə qədər ölkəsində sərgilər keçirildiyini deyib. O, sərginin təşkilində dəstəyə görə Azərbaycanın Böyük Britaniyadakı Səfirliyinə və Yunus Əmrə İnstitutuna təşəkkür edib.

Səfirliyimizin müşaviri Rəşad Vahabzadə ölkəmizin mədəniyyətini təmsil və təbliğ edən bu cür tədbirlərin əhəmiyyətini vurğulayıb.

Sərgi iyulun 8-dək davam edəcək.

### 1963-cü ildə çəkilən filmin yeganə nüsxəsi bərpa olunub



səh. 2

### Hökumət Evində Vətəndaşların Qəbulu Mərkəzi fəaliyyətə başlayıb

səh. 2

### Gəncədə "Türkiyə-Azərbaycan qardaşlıq gecəsi"



səh. 4

# Azərbaycanla ABŞ-ı tərəfdaşlıq münasibətləri birləşdirir

Otuz ildir ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Biz ilk gündən ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə ABŞ-ın dəstəyini yüksək qiymətləndiririk.

Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin 4 İyul – Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Cozef Baydenə ünvanladığı təbrik məktubunda yer alıb.

Məktubda vurğulanır ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq uğurla davam edir. Beynəlxalq təhlükəsizliyin təmin olunmasında uzun müddətdən bəri davam edən birgə fəaliyyətimiz məmnunluq doğurur. Enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx əməkdaşlığı, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrə ABŞ-ın yaxından iştirakı və hərtərəfli dəstəyi müvəffəqiyyətimizin əsas amillərindəndir.

"Bu gün Azərbaycan ilə ABŞ arasında bir sıra mühüm sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əməkdaşlığımız siyasi əlaqələrimizin də genişlənməsinə şərait yaratmışdır", – deyə Azərbaycan Prezidentinin məktubunda bildirilir.

Məktubda Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inam ifadə olunur. Həmçinin qeyd olunur ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən basdırılmış minalar aparılan bərpa və yenidənqurma işlərinə ən böyük əngəl olaraq qalmaqdadır: "Biz minatəmizləmə işində ABŞ-ın ölkəmizə göstərdiyi yardımı təqdir edirik".

# Diasporla İş üzrə Dövlət Komitəsinin 20 illiyi münasibətilə

İyulun 5-də Diasporla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20 illiyi tamam oldu. 2002-ci ildə Prezident Heydər Əliyevin fərmanı ilə yaradılan qurum 2008-ci ilədək Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi adlanıb.

Əlamətdar yubiley ərəfəsində Prezident İlham Əliyev Diasporla İş üzrə Dövlət Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan diasporu ilə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə Dövlət Komitəsinin sədri Fuad Muradov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, komitənin 8 nəfər əməkdaşı "Tərəqqi" medalı ilə təltif olunub.

# Hökumət Evində Vətəndaşların Qəbulu Mərkəzi fəaliyyətə başlayıb

İyulun 5-dən etibarən Hökumət Evində (Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84) yerləşən dövlət qurumları tərəfindən vətəndaşların qəbulunun vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə yaradılan Vətəndaşların Qəbulu Mərkəzi fəaliyyətə başlayıb.



Mərkəzdə vətəndaşların qəbulu İqtisadiyyat, Energetika, Mədəniyyət və Kənd Təsərrüfatı nazirlikləri, Ailə, Qadın, Uşaq Məsələləri üzrə Dövlət Komitəsi, Ombudsman (İnsan hüquqları üzrə müvəkkil), Əqli Mülkiyyət Agentliyi, Meliorasiya və Su Təsərrüfatı ASC-nin məsul əməkdaşları tərəfindən həyata keçirilir.

Mərkəz Hökumət Evində yerləşən bütün dövlət orqanlarına vahid məkanda müraciət etmək imkanı yaradır.

Vətəndaşların Qəbulu Mərkəzində müasir avadanlıqlarla təchiz olunmuş ümumi qəbul sahəsi, videoqəbul otaqları, əlilliyi olan məsul şəxslər tərəfindən qəbul üçün xüsusi otaqlar fəaliyyət göstərir.

Mərkəzdə qeyd edilən qurumların mütəxəssisləri ilə yanaşı, könüllülər də qəbula gələn vətəndaşlara köməklik göstərəcək.

# Azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri necə gedir?

əvvəli səh. 1-də

Heyətin üzvləri, həmçinin Tərtər rayonunun işğaldan azad edilən Talış kəndində olublar. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev kəndin hazırlanan layihəsi barədə, Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova kəndin dövlət başçısının son tapşırıqlarına uyğun olaraq tərtib olunan turizm inkişaf konsepsiyası barədə məlumat veriblər.





Daha sonra Ağdam istiqamətinə yola düşən heyət üzvləri Bərdə-Ağdam dəmiryolunun, eləcə də Bərdə-Ağdam, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yollarının tikintisi işləri ilə tanış olublar. Görülən işlər barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Hicran Valehov və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov məruzələr ediblər.

Şahbulaq qalasında görülən işlərlə tanışlıq zamanı Şahbulaq Turizm Kompleksinin layihəsi barədə məlumat verilib. Daha sonra ANAMA-nın Ağdam mobil sahə düşərgəsinə yola düşən iştirakçılar düşərgə və minatəmizləmə işləri ilə tanış olublar.

Ağdam şəhəri ərazisində heyət üzvləri "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinə baxış keçirib, daha sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov Ağdam Sənaye Parkında görülmüş işlər barədə heyətə ətraflı məlumat verib.

Heyət üzvləri həmçinin Ağdamda inşa olunan yaşayış kompleksinin tikinti işləri ilə də tanış olublar.

Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Ağdam Cümə məscidində görülən işlər barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Fondun icraçı direktoru Anar Ələkbərov ətraflı məlumat verib. Daha sonra təhsil naziri Emin Əmrullayev heyəti Ağdamda 1 saylı tam orta məktəbdə aparılan tikinti işləri-nin gedişatı ilə tanış edib.

Səfərin sonunda Baş nazir və Prezident Administrasiyası rəhbərinin başçılıq etdiyi heyət Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar.

Səfər müddətində baxış keçirilən bütün yenidənqurma və bərpa işlərinin, habelə infrastruktur layihələrinin Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun yerinə yetirilməsi istiqamətində aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər və tövsiyələr verilib.

# Musiqinin "İpək Yolu" yenə Şəkidən keçəcək

## Pandemiya üzündən yaranan ikiillik aradan sonra festival bərpa olunur

əvvəli səh. 1-də

Firəngiz Əlizadə budəfəki festivalın 7 iyul tarixində başlanmasının da simvolik olduğunu dedi. Bildirdi ki, üç il əvvəl, 2019-cu il 7 iyul tarixində "Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzi" UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib.

Vurğulandı ki, 2022-ci ilin Prezident İlham Əliyev tərəfindən "Şuşa İli" elan edilməsi ilə əlaqədar festivalın proqramında 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı böyük Zəfəri vəsf edən əsərlərə üstünlük veriləcək.

Mətbuat konfransında diqqətə çatdırıldı ki, üç gün davam edəcək festivalın proqramında Azərbaycan musiqi mədəniyyəti geniş şəkildə təmsil olunacaq. Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, həmçinin "Simurq" muğam ansamblı, "Dərviş" qrupu və Şəkinin "Zirvə" folklor ansamblı rəngarəng konsert proqramı təqdim edəcəklər.

Xalq artisti, dirijor Ağaverdi Paşayev, Əməkdar incəsənət xadimi, rejissor Hafiz Quliyev, "Şimurq" muğam ansamblının rəhbəri, kamança ifaçısı Elnur Mikayılov festivalın proqramı ilə bağlı məlumat verdilər. ABİ-nin katibləri – Əməkdar incəsənət xadimləri Zemfira Qafarova və Cəlal Abbasov Şəki "İpək Yolu" festivalının tarixindən söz açaraq layihənin əhəmiyyətini vurğuladılar.



Bildirildi ki, festivalın uğurları respublikamızda, habelə onun hüdudlarından uzaqlarda böyük əks-səda yaradıb. Xarici ölkələrdən dəvət olunmuş musiqiçilərin festivalda iştirak etməsi, musiqinin bütün millətlər arasında ən anlaşıqlı ünsiyyət dili olduğunun bir daha sübut edir. Bəstəkarlar İttifaqının bir sıra önəmli beynəlxalq layihələrindən olan "İpək Yolu" festivalı qədim tarix və mədəniyyət mərkəzi olan Şəkini Şərq və Qərbi birləşdirən musiqi beşiyinə çevirib. Dünyanın bir çox ölkələrinin kollektivləri ötən on festivalda burada fəal müzakirə və mübadilələr aparıb, yaxın və uzaq xarici ölkələrdən gələn qonaqlar Azərbaycanın dilbər guşəsi Şəkini yaxından tanıyıblar.

Sonra media nümayəndələrinin sualları cavablandırıldı.

Qeyd edək ki, festivalın rəsmi açılışı iyulun 7-də saat 21:00-da Şəkinin "Marxal" istirahət kompleksinin "Yay teatrı"nda keçiriləcək. Açılışda F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) 60 nəfərlik heyətlə konsert proqramı təqdim edəcək. Festivalın ilk günü həmçinin saat 12:00-da Bəxtiyar Vahabzadə adına mədəniyyət və istirahət parkında Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri (dirijor – Əməkdar artist Səməd Vəkilov), saat 19:00-da isə Yuxarı karvansarada "Dərviş" qrupunun konsertləri olacaq.

**L.Azəri**

# "Axırıncı namaz"

## 1963-cü ildə çəkilən filmin yeganə nüsxəsi bərpa olunub

Bu il aktrisa, kinorejissor, ssenarist Zeynəb Kazımovanın (1912-1984) anadan olmasının 110 illik yubileyidir.

Azərbaycan Dövlət Film Fondunda aktrisanın kino irsi araşdırılan zaman onun bu günədək geniş tamaşaçı kütləsinə məlum olmayan "Axırıncı namaz" filmi aşkara çıxarılıb.

Fonddan bildirilib ki, 1968-ci ildə Moskvada çapdan çıxmış "Sovet bədii filmləri. Annotasiyalı kataloq"un 1958-1963-cü illərdə çəkilmiş filmləri əhatə edən IV cildində (səh. 607) rejissorun 1963-cü ildə "Axırıncı namaz" adlı ikihissəli qısametrajlı bədii film çəkdiyi qeyd olunub.

Daha sonra araşdırmalar davam etdirilib və filmin yeganə nüsxəsinin Naxçıvan Dövlət Film Fondunun bazasında olduğu müəyyən edilib. Həmin nüsxə Azərbaycan Dövlət Film Fondunda elektron formatda bərpa olunub.

C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında çəkilən ekran əsərinin rejissoru Zeynəb Kazımova, operatoru Əsgər İsmayılov, rəssamı Məmmədağa Məmmədov, bəstəkarı Zakir Bağırovdur. Filmdə Ağadadaş Qurbanov, Möhsün Sənani, Ətayə Əliyeva, Münəvvər Kələntərli kimi tanınmış sənətkarlar çəkiliblər. M.Kələntərlinin "Axırıncı namaz"da oynadığı epizodik rol görkəmli aktrisanın kinoda son işi olub.

**Lalə**

# İrəvanda Azərbaycan tarixi irsinin son qalığı – Təpəbaşı məhəlləsi

## Tarixi xəritələr və arxiv sənədləri əsasında araşdırmanın təqdimatı keçirilib

İyulun 5-də "Gülüstan" sarayında "İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi: Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi" üzrə aparılmış araşdırmanın və onun nəticələrini əks etdirən nəşrin təqdimatı keçirilib.





Araşdırma çərçivəsində İrəvan şəhərinin, o cümlədən Təpəbaşı hissəsinin tarixi, şəhərdə yüz il əvvəl başlanmış və hələ də davam edən Azərbaycan irsinin sistemli dağıdılması prosesi, Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi barədə məlumatlar əldə olunub.

Tədbirin əvvəlində Azərbaycan xalqının İrəvanda tarixən təşəkkül tapmış milli-mədəni irsi barədə film nümayiş etdirilib.

Araşdırmanın müəllifi – tarixçi Səbuhi Hüseynov bildirib ki, materialların hazırlanmasında Azərbaycan Respublikasının Milli Arxivində, Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində, Amerika Birləşmiş Ştatları Konqres Kitabxanasının Nadir əlyazmalar kolleksiyasında, Türkiyədə Osmanlı Arxivində, Rusiya Federasiyasının Dövlət Arxivində saxlanılan sənədlərdən istifadə olunub. Həmçinin üçüncü dövlətlərin arxivlərindən əldə olunan Ermənistan arxivlərinin mikrofilmləri də tədqiqata cəlb edilib.

Vurğulanıb ki, mövzunun araşdırılmasında ilk dəfə Coğrafi İnformasiya Sisteminə (Geographical Information Systems – GIS) günümüzə qədər məlum olan hərbi topoqrafik xəritələr və şəhər planlarının inteqrasiya edilməsi sayəsində İrəvanın tarixi şəhər landşaftı müəyyən edilib, məkana bağlı müxtəlif təhlillər aparılıb, vaxtilə İrəvanın Təpəbaşı hissəsində mövcud olmuş memarlıq abidələrinin koordinatları müəyyən edilməklə onların məhv edilmə dövrləri dəqiqləşdirilib.

Hazırda İrəvan şəhərinin Təpəbaşı hissəsindən yalnız Təpəbaşı məhəlləsinin ərazisi müəyyən edilərək mövcud abidələrin bazası yaradılıb. Məlum olub ki, burada 300-dən çox yaşayış evi mövcuddur.

Araşdırma nəticəsində əldə edilmiş materiallardan ibarət kitab ərsəyə gəlib. Kitabda Təpəbaşı məhəlləsinin və orada dağılmaq üzrə olan son abidələrin Azərbaycan xalqına məxsusluğunu sübut edən arxiv sənədləri də dərc edilib.

Azərbaycan Qaçqınlar Cəmiyyətinin və "Qərbi Azərbaycan İcması" İctimai Birliyinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxışında İrəvan şəhərinin başqa yaşayış massivləri kimi, Təpəbaşı məhəlləsində də azərbaycanlıların həmişə üstünlük təşkil etdiyini, lakin zaman-zaman onların Ermənistandan deportasiya olunduğunu, onlara məxsus tikililərin, habelə İrəvan şəhərindəki müsəlman abidələrinin erməni vandalizminin qurbanına çevrildiyini vurğulayıb.

İrəvanın Təpəbaşı məhəlləsinin keçmiş sakini, "Elmi araşdırmalar" İctimai Birliyinin sədri Telman Qasımov çıxışında məhəllənin vaxtilə mövcud olmuş milli koloriti barədə xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

"Miras" mədəni irsin öyrənilməsinə kömək" İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlili İrəvan şəhərinə və onun mədəni irsinə beynəlxalq konvensiyalar çərçivəsində yanaşılmalı olduğunu, UNESCO da daxil olmaqla, beynəlxalq təşkilatların faktarasdırıcı missiyalarının bu irsin hazırkı vəziyyəti ilə bağlı monitorinqinin aparılması üçün akademik fəaliyyətlərə dəstəyin vacibliyini qeyd edib.

Bildirilib ki, bütövlükdə İrəvan, o cümlədən şəhərin Təpəbaşı məhəlləsində yerləşən Azərbaycan xalqının milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırımı prosesi ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlanıb.

Tədbir çərçivəsində Təpəbaşı məhəlləsindəki dağıdılmış və sökülməkdə olan abidələrin fotosərgisi təşkil edilib.

Təqdimatda dövlət rəsmiləri, diplomatik korpusun, elm və təhsil müəssisələrinin, ictimai təşkilatların nümayəndələri, eləcə də Təpəbaşı məhəlləsində yaşamış ailələrin üzvləri iştirak ediblər.

# Şuşa adından istifadə müvafiq qurumun razılığı ilə mümkün olacaq

Azərbaycan Respublikasının qanunları ilə və müvafiq dövlət qurumu tərəfindən müəyyən edilən hallar istisna olmaqla, qalan hallarda "Şuşa" sözündən ("Şuşa" sözü olan söz birləşməsindən) istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə yol veriləcək.




Bununla bağlı müvafiq müddəa "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" qanuna edilən dəyişiklikdə əksini tapıb.

"Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanunu 2021-ci il 31 may tarixində qəbul olunub. Sözügedən qanunda dəyişiklik edilməsi barədə Milli Məclisin 13 may 2022-ci il tarixində qəbul etdiyi qanun Prezident İlham Əliyev tərəfindən imzalanaraq 1 iyul 2022-ci il tarixində qüvvəyə minib.

Qanuna edilən 3-1-ci maddəyə (Şuşa şəhərinin adından istifadə edilməsi) əsasən, Azərbaycan Respublikasının qanunları ilə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallar istisna olmaqla, aşağıdakı hallarda "Şuşa" sözündən ("Şuşa" sözü olan söz birləşməsindən) istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə yol verilir:

hüquqi şəxslərin, o cümlədən media subyektlərinin adlarında; mükafatların və təltiflərin adlarında; yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman və digər yarışların, konsertlərin, festivalların, sərgilərin, konfransların, seminarların adlarında; kommersiya və reklam məqsədilə; əmtəə nişanlarında və coğrafi göstəricilərdə.

Bununla yanaşı, yuxarıda nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir.

"Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" qanunun icrası ilə bağlı digər mövcud qanunvericilik aktlarına da zəruri dəyişikliklər edilib. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Milli Məclis tərəfindən 13 may 2022-ci il tarixində qəbul edilən qanun dövlət başçısı tərəfindən imzalanaraq 1 iyul 2022-ci il tarixində qüvvəyə minib.

# Gəncədə "Türkiyə-Azərbaycan qardaşlıq gecəsi"

*Gəncə RMİ, Türkiyənin Gəncədəki Baş Konsulluğu, "MGM Group" və "HAKAS" şirkətlərinin təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Türkiyə-Azərbaycan qardaşlıq gecəsi" adlı konsert proqramı keçirilib. Konsertdə qonaq qismində tanınmış türkiyəli müğənni, bəstəkar Uğur Işılak iştirak edib.*

Konsert proqramından əvvəl Gəncə Şəhər İcra Hakimiyyətində qonaqla görüş olub. Sonra Uğur Işılak Vətən müharibəsi zamanı Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qaldığı əraziyə baş çəkib, burada həlak olanların xatirəsinə ehtiramını bildirib. Qonaq həmçinin Nizami Gəncəvi Məqbərəsini və Nuru Paşanın Ev-Muzeyini də ziyarət edib.



"Türkiyə-Azərbaycan qardaşlıq gecəsi" adlı konsert proqramı ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Gecədə Gəncə Dövlət Filarmoniyasının solistləri – Xalq artisti Sevinc İbrahimova, Əməkdar artist Kəmalə Tağızadə, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, digər solistlər Pərvanə Rüstəmova, İslam Əlizadə, Rövşən Məmmədov və başqaları maraqlı repertuarla çıxış ediblər. "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının ifasında nümayiş olunan rəqs proqramı tamaşaçıların zövqünü oxşayıb.

Konsertin ikinci hissəsində türkiyəli müğənni Uğur Işılak səhnədə yerini alıb. Sənətçinin ifası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Söz və musiqisi özünə aid olan "Azərbaycan Türkiyədir – Türkiyə Azərbaycan" türküsü isə böyük coşqu yaradıb.

Sonda sənətçi göstərdikləri isti münasibətə və qonaqpərvərliyə görə gəncəlilərə təşəkkürünü bildirib.

# Regional idarənin əməkdaşları üçün təlimlər keçirilib



*Mədəniyyət Nazirliyi Aparatının əməkdaşları tərəfindən Bərdə Regional Mədəniyyət İdarəsinin əməkdaşları, həmçinin idarənin tabeliyində fəaliyyət göstərən müəssisələrin rəhbər vəzifəli şəxsləri və mütəxəssisləri üçün 28-30 iyun tarixində təlimlər keçirilib.*

Nazirliyin Sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri İsmayıl Əbdüləzimov, İnsan kapitalının idarə edilməsi şöbəsinin Dövlət qulluğu sektorunun müdiri Emin Qarayev və sektorun aparıcı məsləhətçisi Araz Əlizadə tərəfindən aparılan təlimlər zamanı dövlət qulluğu etikası, etik davranış qaydalarının pozulmasına görə məsuliyyət, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, bu barədə müraciətlərə baxılması, korrupsiya risklərinin müəyyən edilməsi, dövlət qulluqçularının cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, əmək qanunvericiliyi, dövlət qulluğu və s. məsələlər haqqında ətraflı məlumatlar verilib.

Təlimlərdə ümumilikdə 139 nəfər iştirak edib.



# Mədəniyyət müəssisələrində "Şuşa İli" davam edir



"Şuşa İli" ilə bağlı Mədəniyyət Nazirliyinin təşkil etdiyi muğam festivalında I yerin qaliblərindən – Sabirabad Regional Mədəniyyət İdarəsinin (RMİ) Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbinin şagirdi Əli Ağazadə, eləcə də şagirdin müəllimi Səməd Səmədov Sabirabad Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif edilib. Mərasimdə çıxış edən RMİ-nin rəisi Fərid Qurbanzadə və başqaları müsabiqənin əhəmiyyətindən danışıb, Sabirabadı təmsil edən şagirdin qalib gəlməsini önəmli hadisə kimi qiymətləndiriblər.

***

Gəncə RMİ Naftalan şəhər Heydər Əliyev Mərkəzinin dəstəyi və şəhər Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirilib. Gəncə RMİ-nin rəisi Vasif Cənnətovun da iştirak etdiyi tədbirdə məktəbin şagird və müəllimlərindən ibarət xor kollektivinin ifasında bəstəkar mahnıları alqışlarla qarşılanıb.

***

Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Şabran rayon Mədəniyyət Mərkəzində "Şuşa İli"nə həsr edilmiş "Qarabağın tacı – Şuşa" mövzusunda regional tədbir keçirilib. İlk olaraq açıq səma



altında təşkil edilmiş kitab, rəsm və dekorativ-tətbiqi sənət, o cümlədən mətbəx nümunələrinin sərgisinə baxış keçirilib. RMİ-nin rəisi Vüsal Hüseynov çıxışında qeyd edib ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan Şuşa yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi-mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb. Tədbir regionda fəaliyyət göstərən xalq teatrı və dram dərnəklərinin, folklor və musiqi kollektivlərinin çıxışları ilə davam edib.

***



Şəmkir RMİ-nin Daşkəsən rayonu üzrə nümayəndəliyinin təşəbbüsü, Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə gənc şair Etibar Həsənzadənin "Şuşa – Zəfərin zirvəsi" adlı videokompozisiyasının təqdimatı keçirilib. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev gənc yazarın yaradıcılıq fəaliyyətindən danışıb, ona gələcək işlərində uğurlar arzulayıb. Daha sonra "Şuşa – Zəfərin zirvəsi" videokompozisiyası nümayiş olunub. Məktəblilərin ifasında şairin "Şuşam", "Bayrağım", "Azərbaycan" şeirləri səsləndirilib.

# Bölgələrdə müxtəlif şəkili tədbirlər



İsmayıllı RMİ Qəbələ rayon Mədəniyyət Mərkəzinin Cığatelli kənd Mədəniyyət evinin nəzdində fəaliyyət göstərən "Gülbuta" folklor qrupu tərəfindən "Xan qızı Natəvan poeziyası" adlı tədbir keçirilib. Görkəmli şairənin 190 illiyinə həsr olunan tədbirdə Xurşidbanu Natəvanın həyat və yaradıcılığı haqqında məlumat verilib, poeziyasından nümunələr səsləndirilib.

***

Kürdəmir RMİ Kürdəmir rayon Heydər Əliyev Mərkəzində regional idarənin yanında fəaliyyət göstərən Mədəniyyət şurasının iclası keçirilib. İclasda şura üzvləri, rayon nümayəndələri, müəssisə rəhbərləri iştirak ediblər.

***



Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzində təqaüddə olan mədəniyyət işçiləri ilə "Nəsillərin görüşü" adlı tədbir keçirilib. Tədbirdə Milli Məclisin deputatı Jalə Əhmədova, Salyan Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov, Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov və digərləri çıxış ediblər. Sonda Salyanın mədəni həyatını və incəsənət uğurlarını əks etdirən film nümayiş olunub.

***

Lənkəran RMİ Astara rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə səyyar kitabxana xidməti təşkil edilib. Xidmət zamanı tarixə, milli-mənəvi dəyərlərimizə, bədii ədəbiyyatımıza, mədəniyyətimizə dair kitablar nümayiş olunub.

***

Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasında "Cəsur və fədakar Azərbaycan polisi" mövzusunda tədbir keçirilib. Tədbirdə kitabxananın direktoru Əlheddin Nəzərovun çıxışı dinlənilib.

***

Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində 2 iyul – Azərbaycan Polisi Gününə həsr olunmuş tədbir təşkil olunub. Tədbirdə "Əsl Azərbaycan polisi necə olmalıdır?", "Polisin həyatımızda nə kimi rolu var?" və s. suallar ətrafında gənclərlə diskussiya aparılıb.

***

Şəki RMİ-nin rəisi vəzifəsini icra edən Tərlan Nəsibov Şəki şəhər MKS-nin və filiallarının əməkdaşları ilə görüş keçirib. Görüşdə iclas iştirakçılarının problemləri və təklifləri dinlənilərək onların icrası üçün lazımi qeydlər götürülüb.



Qax rayon MKS-nin şəhər 1 saylı kitabxana filialı "O kimdir? adlı əyləncəli viktorina təşkil edib. Viktorinada məktəblilər üç komanda şəklində iştirak ediblər. "O kimdir?" rubrikasında onlara müdriklərdən kəlamlar, tapmacalar, uşaqlar üçün yazılmış şeir və hekayələrin müəllifləri və nitq inkişafını formalaşdıran əyləncəli, məntiqli suallar təqdim olunub.

***

Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır" adlı tədbir keçirilib. Çıxışlarda sağlam həyat tərzinin cəmiyyətdə, xüsusilə gənclər arasında təbliği üçün yeniyetmə və gənclər arasında bəşəri bəlaya qarşı düzgün maarifləndirici tədbirlərin intensiv hal almasının zəruriliyi bildirilib.



Tovuz rayon MKS-nin Uşaq kitabxanasında yay tətili ərzində ödənişsiz və könüllü əsaslarla "Kitab sənin ilk dostundur" adlı "Yay məktəbi" təşkil edilib. Aksiyanın məqsədi oxucuların mütaliə bacarıqlarının möhkəmləndirilməsi, elmi inkişaflarının ümumiləşdirilməsidir.

***

Gəncə RMİ Kəlbəcər rayon MKS-nin Uşaq şöbəsi uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların kitaba maraqlarını artırmaq məqsədilə Kəlbəcər rayon Mədəniyyət Sarayının həyətində kitab sərgisi təşkil edib.

***



Gəncə RMİ, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və "Cavad xan" Tarix-Mədəniyyət Fondunun təşəbbüsü ilə Gəncə Dövlət Filarmoniyasında yazıçı-dramaturq, Əməkdar jurnalist Nüşabə Məmmədlinin yaradıcılıq gecəsi keçirilib.

Şəhərin icra başçısı Niyazi Bayramov çıxış edərək dövlət tərəfindən ölkəmizdə, eləcə də Gəncədə mədəniyyət sahəsinə göstərilən diqqət və qayğıdan söz açıb. Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk və digər qonaqlar Nüşabə Məmmədlinin həyat və yaradıcılığından danışıblar.

Gəncənin ictimai-mədəni həyatında səmərəli fəaliyyətinə görə yazıçı-dramaturqa şəhər İcra Hakimiyyətinin təşəkkürnaməsi və "Cavad xan" Tarix-Mədəniyyət Fondunun təsis etdiyi "Cavad xan" ordeni təqdim edilib.

Filarmoniya solistlərinin konsert proqramı ilə davam edən tədbirin sonunda Nüşabə Məmmədli yaradıcılıq gecəsinin təşkilində əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

***



Bərdə RMİ-nin təşkilatçılığı ilə Tərtər rayon Heydər Əliyev adına istirahət parkında yaradıcı gənclərlə yerli şairlərin görüşü keçirilib. Görüşdə mədəniyyət işçiləri, Gənclərin İnkişaf və Karyera Mərkəzinin könüllüləri, müxtəlif təşkilatlarda çalışan yaradıcı gənclər iştirak ediblər.

RMİ-nin rəisi Vəsilə Möhsümova bildirib ki, belə görüşlər gənclərin bədii ədəbiyyata marağının artırılmasına, insanların asudə vaxtlarının səmərəli keçməsinə xidmət edir.

Şairlər şeirlərini oxuyub, "Qarabağ" rəqs qrupu və gənc ifaçıların musiqi nömrələri tamaşaçılarda xoş ovqat yaradıb. Tədbirdə yaradıcı gənclərin əl işləri də nümayiş olunub.

# "Yay məktəbi" – bilgi və əyləncə bir arada



*Sumqayıt RMİ, Təhsil Nazirliyi, Sumqayıt şəhər, Abşeron və Xızı rayon icra hakimiyyətlərinin dəstəyi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin (RTİ) təşkilatçılığı ilə "Yay məktəbi"nin yekununa həsr olunmuş tədbir keçirilib.*

Xızı rayonunda ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda keçirilən tədbirdə Milli Məclisin deputatı Müşfiq Məmmədli, Xızı-nın icra başçısı Xəzər Aslanov, Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev, Abşeron-Xızı RTİ-nin müdiri İlhamə Abdullayeva, Sumqayıt şəhər, Abşeron və Xızı rayonları üzrə 600-dən çox şagird, təhsil işçiləri və valideynlər iştirak ediblər.

İştirakçıları salamlayan Abşeron-Xızı RTİ-nin müdiri İlhamə Abdullayeva "Yay məktəbi"nin əhəmiyyətindən söz açıb. Sonra tədbir iştirakçıları şagirdlər tərəfindən hazırlanmış müxtəlif mövzulu stendlərə baxış keçiriblər.

Şagirdlərin birgə intellektual və əyləncəli proqramı tədbir iştirakçılarının marağına səbəb olub.

***

Sabirabad RMİ də aidiyyəti təşkilatlarla birlikdə "Əylənək, öyrənək, dincələk" devizi ilə "Yay məktəbi" təşkil edib. Layihənin məqsədi məktəblilərin yay tətilini səmərəli keçirməsinin istiqamətləndirilməsi, gənc nəslin vətənpərvərlik ruhunun inkişafı, mədəni və intellektual səviyyəsinin formalaşmasıdır.



Hacıqabul rayon MKS-nin direktoru Dövran Həsənov tədbiri açaraq "Yay məktəbi"nin üzvlərinə uğurlar arzulayıb. Sonra musiqi nömrələri təqdim olunub. Sonda Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə çıxış edərək layihənin əhəmiyyətini vurğulayıb, təşkilatçılara minnətdarlığını bildirib.

**Hazırladı: N.Məmmədli**

# Yuğ Teatrına yeni baş rejissor təyin edilib



Azərbaycan Dövlət Yuğ Teatrına yeni baş rejissor təyinatı olub. Mədəniyyət naziri Anar Kərimovun müvafiq əmri ilə bu vəzifəyə indiyədək Yuğ səhnəsində bir sıra tamaşalara quruluş vermiş rejissor Mikayıl Mikayılov təyin edilib.

Teatrın mətbuat xidmətindən verilən məlumata görə, iyunun 30-da Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, Teatr sektorunun müdiri Könül Cəfərova və sektorun əməkdaşı Günay Hümbətovanın iştirakı ilə yeni baş rejissor kollektivə təqdim edilib.

Fərəh Acalova çıxış edərək bildirib ki, Mikayıl Mikayılov Yuğ Teatrının ənənələrinə yaxından bələd olan, bu teatrda formalaşan rejissordur. Ustad sənətkar Vaqif İbrahimoğlunun yetirməsidən M.Mikayılov həm Azərbaycanın müxtəlif teatrlarında, həm də ölkə hüdudlarından kənarda tamaşalar hazırlayıb. Şöbə müdiri qeyd edib ki, Yuğ Azərbaycan teatr məkanında məxsusi yeri olan sənət ocaqlarındandır və Mədəniyyət Nazirliyi teatrın inkişafına dəstək olmaq üçün mümkün addımları atır. Teatrın bina probleminin həll edilməsi də nazirliyin gündəliyində duran məsələlərdəndir.

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi İslam Həsənov Mikayıl Mikayılovu yeni təyinat münasibətilə təbrik edib və qarşıda teatrı daha böyük yaradıcılıq uğurlarının gözlədiyinə inamını bildirib.

Sonda çıxış edən yeni baş rejissor etimada görə Mədəniyyət Nazirliyinə təşəkkür edib və doğma teatrının yeni inkişaf yoluna qədəm qoyması üçün əlindən gələni əsirgəməyəcəyini söyləyib.

Qeyd edək ki, Mikayıl Mikayılov 1981-ci ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kino və teatr rejissoru ixtisasında bakalavr və magistr pillələri üzrə ali təhsil alıb. 1999-cu ildə Azərbaycan Dövlət Pantomima Teatrında aktyor və rejissor kimi fəaliyyətə başlayıb, 2005-ci ildən Yuğ Teatrında rejissor kimi çalışır. Rejissor həmçinin Akademik Milli Dram Teatrında, Akademik Musiqili Teatrda, habelə Qazaxıstanın Karaqanda vilayətinin K.S.Stanislavski adına Dövlət Rus Dram Teatrında, Rusiyada ("Anqajament" və "Krasnıy fakel" teatrları), Rumıniyada ("Marin Sorescu" teatrı) tamaşalar hazırlayıb. Adolf Şapiro, Kama Ginkas, Kiril Serebrennikov, Deklan Donellan, Yoşi Oyda, Aleksey Borodin, Sergey Jenovaç kimi məşhur teatr mütəxəssislərinin ustad dərslərində olub. 2009-cu ildə Çexiyada birillik təcrübə keçib.

# Gənc vokalçı ABŞ-da müsabiqədə birinci olub

## Urfan Cəfərov "Carnegie Hall"da solo çıxış edəcək

Nyu-Yorkda "American Protege International Vocal Compeition – 2022" beynəlxalq opera ifaçılarının müsabiqəsi keçirilib.

Müsabiqədə ölkəmizi təmsil edən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, respublika və beynəlxalq müsabiqələr laureatı, opera ifaçılarının Avropa birincisi Urfan Cəfərov I yerə layiq görülüb.

Müsabiqədə ABŞ, Azərbaycan, Avstriya, Bosniya və Herseqovina, Kanada, Çin, Danimarka, Hindistan, İndoneziya, İran, Yaponiya, Litva, Malayziya, Yeni Zelandiya, Sinqapur, Cənubi Koreya, BƏƏ, ümumilikdə 21 ölkədən ifaçılar iştirak edib.



Səsi və səhnə mədəniyyəti ilə münsifləri heyran edən Urfan Cəfərov bu nəticə ilə Nyu-Yorkun məşhur "Carnegie Hall" konsert zalında keçiriləcək vokalçıların müsabiqəsinin final mərhələsinə birbaşa vəsiqə qazanıb. O, eyni zamanda bu səhnədə solo ifa edəcək.

Qeyd edək ki, sözügedən müsabiqə çox rəqabətli mühitdə özlərini sınamaq istəyən müğənnilər üçün nəzərdə tutulub. Eyni zamanda vokalçılar üçün unikal tramplin hesab olunan yarışma gənc ifaçıların dünya şöhrətli səhnədə solo konsertini keçirmək imkanı olan azsaylı platformalardan biridir.

Xatırladaq ki, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında görkəmli opera müğənnisi, Xalq artisti, professor Xuraman Qasımovanın tələbəsi olmuş Urfan Cəfərov gənclər mükafatı laureatıdır.

**Lalə**

# Gəncəli kuklaçıların "Ana qaz"ı

Gəncə Dövlət Kukla Teatrında Xalq şairi Rəsul Rzanın "Ana qaz" şeirinin motivləri əsasında eyniadlı tamaşa hazırlanıb.




Birhissəli uşaq tamaşasının quruluş müəllifi teatrın baş rejissoru Şamil Məmmədli, quruluşçu rəssamı Məhəmməd Hacıyev, xoreoqrafik həll müəllifi Fərmail Paşayev, musiqi tərtibatçısı Şamil Məmmədlidir. Tamaşada Zülfiyyə Əliyeva, Naidə Namazova, Səməd Xanəhmədov, Yeganə Məmmədova, Elmar Vəliyev, Nərmin Şərifova oynayırlar.

# Yeni binada yeni tamaşa

Gəncə Dövlət Dram Teatrında Amerika yazıçısı Con Patrikin "Qəribə missis Sevic" pyesi tamaşaya qoyulur. İlkin məşq prosesi gedən tamaşanın quruluşçu rejissoru Elşad Əhmədov, quruluşçu rəssamı Mirzə Mehdi Hüseyn, musiqi tərtibatçısı Sevda Əliyevadır.



Əsərin baş qəhrəmanı milyonçu dul qadın Etel Sevic insanların qəribə arzularının yerinə yetirilməsinə kömək göstərmək üçün fond yaradır. Ögey övladları bunu öyrəndikdən sonra onu psixiatriya xəstəxanasına yerləşdirməyə və beləcə, qəyyumluğa götürməyə qərar verirlər...

Səhnə işində Xalq artisti Pərvanə Qurbanova, Əməkdar artistlər Rahilə Məmmədova, Sevda Orucova, Ramiz Vəliyev, Kəmalə Məmmədova, aktyorlar Ruslan Hüseynov, Elmir Məmmədov, Samir Abbasov, Sevinc Hüseynova, Rauf Hüseynov rol alıblar.

Tamaşa yeni mövsümdə teatrsevərlərə təqdim olunacaq.

# "Düyməcik" animasiya ilə kukla estetikasında uşaqların görüşünə gələcək

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında daha bir səhnə işi təqdim olunub. Kuklaçılar bu dəfə uşaqların sevimli yazıçısı Hans Xristian Andersenin məşhur "Düyməcik" nağılına müraciət ediblər.

Tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Vüqar Camalzadə, şeirlərin müəllifi Sevinc Nuruqızıdır.

Musiqili nağıl-tamaşada rolları Cəmilə Allahverdiyeva, Rəhim Rəhimov, Samirə Nəcəfova, Nərmin Əhmədova, Yasin Abbasov və Ramiz Qəmbərov ifa edirlər.

Açıq kukla idarəetmə texnikasından istifadə edilməklə hazırlanan (tamaşada əsas oyun canlı plan üzərindən təqdim olunur) nümunədə fərqli plan və forma seçilərək animasiya ilə klassik kukla estetikasının vəhdətinə nail olunub. Tamaşada pantomima oyun texnikasına da yer verilib.

# İlk "Pillə"dən görünən mənzərə

## Tələbə tamaşaları festivalı barədə düşüncələr



Xəbər verdiyimiz ki 22-25 iyun tarixində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyi münasibətilə "ADMİU 99+" layihəsi çərçivəsində "Pillə" Tələbə tamaşaları festivalı keçirildi.

Festivalda ADMİU-nun Teatr sənəti fakültəsi və "SABAH qrupları" tələbələrinin ifasında diplom və kurs tamaşaları nümayiş olundu.

Dörd gün ərzində universitetdə festival ab-havası hökm sürdü. Tezliklə məzun olacaq gənc kadrlar – tələbə aktyorlar, eləcə də teatrşünaslar qarşı-qarşıya dayanıb maraqlı bir mənzərə hasil etmişdilər. Mən də həmin prosesin seyrçisinə çevrildim.

Əvvəlcə deyim ki, çağdaş teatrın ən ümdə problemlərini sadalayarkən mütləq şəkildə təhsil, kadr hazırlığı, onun səviyyəsi, keyfiyyət və funksionallığı kimi məsələlər göz önünə gəlir. Məsələn, konkret olaraq teatrdan, orada çalışan ixtisaslı kadrlardan – rejissorlardan, aktyorlardan danışıldıqda xüsusən yeni nəsil nümayəndələrində istedad və bilgi azlığını qabartmağa çalışırlar. Təbii ki, bunun obyektiv səbəbi də var və təəssüf ki, bunu içi elə incəsənət təhsili verən müəssisənin pedaqoqları başda olmaqla hamı dərk edir. Heç kimə sirr deyil ki, bu gün bəzi abituriyentlər test imtahanları nəticəsinə görə əsas seçimlərindən sonra ixtisaslar sırasına Mədəniyyət və İncəsənət Universitetindən də müəyyən ixtisasları yazırlar ("balım çatmasa, buna da şükür" prinsipi ilə) və həvəssiz-həvəssiz düz dörd il özlərinə də, onlarla üz-üzə dayanan müəllimlərinə də əzab verirlər. Düzdür, onların içərisində sonradan qəbul olduqları ixtisasa bağlanan, onun önəmini, perspektivliyini anlayanlar da olur...

Nə isə, keçək mətləbə. Tələbələr kimi müəllimlər də sevincli və həyəcanlı idilər. ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə, Teatrşünaslıq kafedrasının müdiri, professor Aydın Talıbzadə və kafedranın müəllimi, tələbə festivalının əsas yükünü çəkən Elçin Cəfərov.

Ümumilikdə beş müəllim, eləcə də tələbə aktyor və teatrşünasların müzakirəsi təxminən bu formatda oldu: danış, səni görüm.

Beləcə, "Gənc ekspertlər qrupunun müzakirəsi"ndən qalanlar.

Müzakirə olunan tamaşa: Elçin – "Mənim sevimli dəlim" (Teatr sənəti fakültəsi, 2-ci kurs, kurs rəhbəri Yaqut Paşayeva).

Məryəm Əlizadə: – Teatrşünaslar, aktiv olun. Dünən artıq siz təcrübə dolu gün keçirdiniz. İndi görək bu təcrübə sizin çıxışlarınıza sirayət edəcəkmi?

Səbuhi Ağayev, teatrşünaslıq, IV kurs: – Tamaşa müəllifini təbrik edirəm. Maraqlı tamaşa idi. Amma mənə çatmayan bir sıra məqamlar var idi. Burada ən çox səs-küy məni narahat etdi. Bu üzdən tamaşanı tuta bilmədim. Aktyor oyunu maraqlı idi. Professor obrazı maraqlı idi, ancaq emosiyada durğunluq müşahidə olunurdu. Elə bil dəftərdən əzbərləyib danışırlar...

Aydın Talıbzadə: – Uşaqlar, sual-cavabın, dialoqun olması daha yaxşı olar. Bir-birinizdən, bizdən də istədiyinizi soruşa bilərsiniz. Bir teatrşünas, tələbə kimi bu obraz, bu mizan sənə necə təsir etdi? Yaxud, əks rəyiniz varmı?

Məhz bu məqamda yerlərdən gah öz aralarında, gah da onların qarşısında dayanan tələbə teatrşünasa haqlı-haqsız iradlar, etirazlar (təbii ki, tələbə aktyorlardan) gəlir. Tələbə teatrşünas Səbuhi bir az da cəsarətlənərək arqumentlərini daha uca səslə çatdırmağa başlayır: – Ortada müəyyən bir məntiq yolu tutulsaydı və tamaşaçılar məqsədi duya bilsəydi, o səs-küy normal qəbul olunardı. Amma mən və digər uşaqlar da baxırıq və müəyyən bir məna tuta bilmirik.

Aydın Talıbzadə: – Səbuhinin dediyində bir həqiqət var. Dəliliyi oynamaq mümkün deyil, onun məntiqini oynamaq lazımdır. Dəliliyin məntiqini oynasaydınız, hər şey yerinə düşəcəkdi. Siz isə dəliliyi oynamaq istəyirdiz. Bu isə alınmırdı. Buyur, davam elə.

Səbuhi Ağayev: – Sualları varsa, versinlər.

Qönçə Firudinli, teatrşünaslıq, IV kurs: – Yaqut xanım, üzr istəyirəm, əsəri oxumamışam. Tamaşaya baxanda aşırı səs var idi. Adamı yorur, hətta sonlara yaxın düşündüm ki, bir də o fit səsi gəlsə, durub çıxacam. Düzdü, dəlixanada bu çığır-bağır normaldır. Lakin qarışıqlıq var idi. Zaman və mühit qarmaqarışıqlığı ola bilər, amma burada məqsədi anlamaq olmurdu. Ola bilər, pyesdə də bu var, amma oyun bu qarmaqarışıqlığı daha da qabartdı...

Məryəm Əlizadə: – Bir söz deyəcəm, inciməyin, biz birinci kursda oxuyanda müəllimlərimiz deyirdilər ki, tamaşaya baxmağa gedəndə mütləq əsəri oxuyun. Oxuduqdan sonra rejissorun o əsər üzərində hansı əməliyyat apardığını dəqiq müəyyən edə biləsiniz. Oxumamısızsa, bu, sizin səhvinizdir.

Haqlı və olduqca yumşaq səslənən iraddan sonra səsi titrəyən tələbə teatrşünasın cəsarəti qırılır və davam eləmədən yerinə keçir. Hətta tamaşanı niyə bəyənmədiyini də bir cümlədə əsaslandıra bilmir.

Biz növbəti gənci dinləyirik.

Fatimə Qurbanzadə, teatrşünaslıq, II kurs: – Kollektivi təbrik edirəm, əziyyət çəkiblər, tamaşa hazırlayıblar. Ümumən tamaşanın içərisində xaos var idi. Rejissorun dəli qəhrəmanları zamanın ritmini tuta bilmədikləri kimi, tamaşanın da ritmini tuta bilmədilər. Aktyorlar sanki sıxılmışdılar, sərbəstlik, obrazlar arasında sinxronluq da yox idi.

Bu məqamda tələbələr arasında "Şeytana papış tikmək" frazası ("papuc", "papıç" kimi versiyaların üzərində sürətli mübahisə etdilər, hətta müəllimlər də prosesə qoşuldu və nəhayət, qərar gəldilər ki, "papış") üzərində müzakirə bitdi.

Suray Ömərova, teatrşünaslıq, IV kurs: – Tamaşada temporitm var idi. Uşaqlar enerjili idi. Monotonluq gözə dəymirdi. Amma iki nəfərin aktyor ifası daha öndə görünürdü. Düzdü, bəzən qırılmalar olurdu. Bəllidir ki, rejissor əsəri tam yox, müəyyən ifadələri vermək istəyir və bu qırılmalar da ondan irəli gəlirdi.

Aydın Talıbzadə: – Tamaşanın qayəsi nə idi? Niyə məhz bu əsər seçilmişdi? Bunlar dərsdə danışılıb axı. Məncə, daha mükəmməl, ətraflı təhlillər edə bilərsiniz.

Bu və əlavə istiqamətləndirmələr, cəsarətləndirici ştrixlər gənc teatrşünasları, az da olsa, həvəsləndirdi və müzakirəyə qoşulanlar müəllimlərinin də izahı ilə bir az da aydınlanmış oldular.

Aynur Əsgərli, teatrşünaslıq, II kurs: – Əsərdə olan satirik yanaşma və sarkazmı tamaşada görmədik. Tamaşada Professor obrazı qroteskə uyğun olaraq yox, sadəcə, komik oyunla təqdim edilirdi. Hərçənd onun missiyası, təyinatı o deyildi. Dəlilikdən şirma kimi istifadə olunmuşdu. Əsərdən fərqli olaraq tamaşada bunu elə də hiss etmirik. Obrazlar özlərini dəlixanada olan əsl dəli kimi göstərməyə çalışırdılar. Absurd elementlər də yerində deyildi. Obrazlarda həyəcanı hiss etmədik. Əvəzində gərginlik var idi və obrazlar eyni ifadə ilə oynanılırdı.

Tələbə aktyorlar da öz arqumentlərini səsləndirməyə, bəraətə can atdılar, oyuna əsaslandıqlarını deməyə çalışdılar. Maraqlıdır ki, tələbələr indidən tənqidə dözümsüzlük sərgilədilər. Bu da o deməkdir ki, hər iki qütb əsaslandırılmış düşüncədən çox, ilkin təəssürata maraqlıdırlar.

Bu məqamda müəllim Elçin Cəfərov tələbələri sakitləşdirmək üçün söhbətə müdaxilə edir: – Dostlar, Aynur deyir ki, Elçinin qəhrəmanları dəlidən şirma kimi istifadə edirlər, sizin yaratdığınız qəhrəmanlar isə, sadəcə, "zır" dəlidirlər.

Araya çökən ani sükutu əsl teatrşünas ədası ilə düz mərkəzə keçib ətrafı süzdürən gənc qız etdi. Salamlama təbrikdən sonra təhlilinə başladı.

Səbinə Zeynalova, III kurs, teatrşünaslıq: – Komediya janrının bütün xüsusiyyətlərini bu tamaşada gördüm. Elşad Şirinovun (Professor) səhnə plastikasında aydınlıq var idi. Digər rollar da maraqlı idi. Səs tembri, danışıq aparatı yerində idi. Sadəcə, bir az tələskənlik müşahidə olunurdu. Müəyyən səslər bir az çox idi. Tamaşa bizi dəlilik dünyasına apara bildi. Dəli rolunu oynamaq heç də asan deyil. Bir qədər də məntiqi ardıcıllıq hiss edilmədi.

Tamaşa haqqında son fikirləri Aydın müəllim, Məryəm xanım və tələbələrinə daha ümidverici yanaşan Elçin Cəfərov səsləndirdi. Daha doğrusu, gənclərin, tələbələrinin (bəziləri artıq məzun olur) fikirlərinə əlavələr, təhlillərinə istiqamətlər verdilər.

***

Daha sonra digər tamaşa – Molyerin "Jorj Danden" (Teatr sənəti fakültəsi, II kurs, rus bölməsi, kurs rəhbəri Ruslan İsmayılov) ətrafında maraqlı, dolğun və geniş müzakirə aparıldı. Budəfəki müzakirədə müəllimlər də maraqlı, hər iki qrup tələbələr üçün vacib detallar ətrafında fikirlər səsləndirdilər.

Təbii ki, müsbət rəylərlə yanaşı, tələbələrə görə mənfi hesab olunan, lakin əsaslandırılmış iradlar da ön planda oldu. Nəticə olaraq rus dili üzrə oxuyan aktyorların bu dilin incəlikləri üzərində elə də ciddi dayanmadıqları aşkara çıxdı. Bunda görə də rus bölməsində oxuyanların nitqindəki nəzərəçarpacaq qüsurlar, bu dildə səlis danışıq ətrafında da geniş danışıldı.

Fasilədə Elçin Cəfərovu da söhbətə çəkdim: "Bildiyiniz kimi, gələn il universitetimizin 100 illik yubileyidir. "Pillə" festivalı da o çərçivədə keçirildi. Bir sıra tədbirlər nəzərdə tutmuşuq və bu festivalın da davamlı olmasını düşünürük. Adı da simvolikdir. Çünki bunlar əsasən kurs və diplom işi tamaşalarıdır. Bu, tələbələr üçün geniş yaradıcılıq yoluna gedilən ilk pillədir. Sonradan bu yolu davam etdirib-etməyəcəklərini, təbii ki, zaman göstərəcək. Festival üçün tamaşalar çox idi və onların arasından proqramda gördüklərinizi seçdik. Festival həmişə bayram, fikir ifadə meydanı, müzakirə, fikir mübadiləsi məkanıdır. Bu mənada festivalın əhəmiyyəti böyükdür".

***

Festival proqramına daxil olan daha bir nümunəni (Nəcəf bəy Vəzirov – "Daldan atılan daş topuğa dəyər", Teatr sənəti fakültəsi, III kurs, kurs rəhbəri Gülşad Baxşıyeva) də izlədim və düşünürəm ki, onun ətrafında ayrıca söhbət etmək olar...

**Həmidə Nizamiqızı**

# “Hərdən yuxularımıza qonaq gəl, Emil...”

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən Vətən oğulları haqqında məlumat verməyə davam edirik. Bu yazıda Vətən müharibəsinin şəhid baş leytenantı Emil Əsədovu xatırlayacağıq.



Emil Balaqardaş oğlu Əsədov 1998-ci il yanvarın 11-də Salyan rayonunun Çuxanlı kəndində hərbçi ailəsində anadan olub. Emilin atası da hərbçi kimi Birinci Qarabağ müharibəsində iştirak edib. 1994-cü ildə ordudan tərxis olunub.

İlk təhsilini Ziyad Həmidov adına Çuxanlı kənd tam orta məktəbində alan Emil 2012-ci ildə C.Naxçıvanski adına Hərbi liseyə daxil olur. 2015-ci ildə liseyi bitirərək, motoatıcı ixtisası üzrə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirir. 2019-cu ildə təhsilini başa vuraraq leytenant rütbəsində Qusar rayonundakı N saylı hərbi hissədə xidmətə başlayır.

Vətən müharibəsinin ilk günlərində tank əleyhinə taqım komandiri olaraq döyüşlərə qatılan Emil Hadrut, Füzuli, Qubadlı, Xocavənd və Şuşanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak edir. Döyüşlər zamanı düşmənin onlarla canlı qüvvəsini məhv edir, xeyli sayda döyüş texnikasını sıradan çıxarır. İki dəfə yaralansa da, yenə döyüşür. Dəfələrlə yoldaşlarını mühasirədən çıxarır, buna görə də “Qaya 11” ləqəbini qazanır. Emil Əsədov noyabrın 7-də, Zəfərə üç gün qalmış Xocavənd istiqamətində döyüşlərdə şəhadətə yüksəlir.

Şəhidin anası Təranə Əsədova Emilin istedadlı olduğunu deyir: “Oğlum yeddi il hərb sənətini oxumuşdu. Vətən müharibəsində göstərdiyi şücaətə görə baş leytenant hərbi rütbəsi verilmişdi. Sevinirəm ki, Emilin qanı yerdə qalmadı. Allah bütün şəhidlərimizə rəhmət eləsin...”.

Bacısı Emiliya Əsədova bildirir ki, Emil uşaqlıqdan Vətənə sevgi, düşmənə nifrət hissləri ilə böyüyüb: “Çünki özü də hərbçi oğludur. Atam da I Qarabağ müharibəsi veteranıdır. Emillə bağlı o qədər danışa bilərəm ki... Anadan olmağını, 1998-ci ilin qarlı, boranlı 11 yanvarını, adını mənim qoymağımı... Xəstəxana həyətində nənəm və atamla gözləyirdim balaca qardaşımın gəlməyini. Öz adımı anam bəyənərək Emiliya qoymuşdu, mən də adıma uyğun qardaşıma ad verdim... Xatırlayıram, hələ uşaq ikən taxtadan silahlar düzəldib guya düşməni məhv edirdi”.

Emiliya xanım söyləyir ki, qardaşının üzgüçülük, balıq tutmaq kimi hobbisi olub: “Yay gələn kimi dostları ilə həmişə evimizin yanından axan Kür çayında çimməyə gedərdilər. Elə orda da balıq tutardılar. Çox sevirdi balıq tutmağı. Çaydan çıxardığı balıqlarla çoxlu şəkilləri var...”.

Vətən müharibəsi zamanı ölkədən kənarda olan bacısı deyir ki, Emilin müharibədə iştirakından xəbərləri olmayıb: “27 sentyabr günü həyat həmişəki axarı ilə davam edirdi. Səhərdən anama mesaj yazmışdım, amma, çatmamışdı. Sonra digər qohumlara yazdım. Narahat olmağa başladım. Çünki heç kimə mesaj çatmırdı. Günorta anamdan belə bir mesaj gəldi ki, müharibə ilə bağlı internet məhdudiyyəti var. Əlim-qolum bağlandı o an. Bəs Emil? Emil haradadır? Nə zənglərə, nə mesajlara cavab vermirdi. Anam yazdı ki, əlaqə saxlamışıq narahat olma, iş yerindədir dedi. Axşam Emil mənə də zəng etdi. “Qusardayam, narahat olma, hər şey yaxşıdır, sadəcə, başım qarışıqdır, telefona baxmağa imkan yoxdur” dedi. Əlimdə telefon bütün günü xəbərləri oxuya-oxuya keçirdi günlərim. Deməli, Vətəndən uzaqda olduğum üçün qardaşım narahat qalmayım deyə məndən döyüşlərdə olduğunu gizlədirmiş. Tez-tez xəbər linklərini göndərirdim ki, bax, Ordumuz filan yeri azad edib. Daha haradan biləydim ki, özü şəxsən o döyüşlərdə iştirak edir. Cəbrayıl rayonu azad olunanda “Halal olsun Azərbaycan əsgərinə, möhtəşəmsiniz!” – deyə mesaj yazdım. Emil yenə heç nə yazmadı. Sən demə, döyüşlərdə yaralanıbmış. Sonra yazdı ki, “Əlbəttə, gücləyük, çox az qalıb. Ordumuz düşməni qovub Qarabağdan çıxaracaq...”.

Emiliya xanım qardaşı ilə son dəfə noyabrın 4-də səhər saatlarında əlaqə saxladığını deyir: “Yazdı ki, hər şey yaxşıdır, narahat olma. Bu onun bizə son mesajı, son yazdığı cümlə idi. Noyabrın 9-u Emilin şəhid xəbəri gəldi. Mənə deməyə heç kəs ürək etməmişdi. O günü, o anı, o çarəsizliyi yaddaşım elə möhürləyib saxladı ki, hüceyrələriməcən hər gün o anları yaşayıram. 22 illik həyatında qısa, amma çox şərəfli ömür yaşadı qardaşım. Kəlmələrin yetərsiz qaldığı elə məqama ucaldı ki, biz yaşadıqca, o, hər zaman yaşayacaq. Bilirəm ki, qardaşımın ruhu şaddır. Sən rahat uyu yatdığın torpaqda, Emil. Ancaq hərdən yuxularımıza qonaq gəl...”.

Emil Əsədov noyabrın 9-da doğulduğu Çuxanlı kəndində torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Qarabağ” ordeni, “Vətən uğrunda”, Xocavənd, Cəbrayıl və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**Nurəddin**

# Sabirin yubileyi ilə bağlı elektron məlumat bazası hazırlanıb

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mirzə Ələkbər Sabirin (1862-1911) anadan olmasının 160 illiyi münasibətilə elektron məlumat bazası hazırlayıb.




“Mirzə Ələkbər Sabir – 160” adlı elektron topluda ədibin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib, əsərlərindən nümunələr təqdim olunub. Burada Sabirin yubileyləri ilə bağlı rəsmi sənədlər, görkəmli şəxsiyyətlərin onun haqqında söylədikləri fikirlər də yer alıb. Bundan əlavə, elektron bazada böyük satirik şair və maarifpərvər ziyalının əsərlərindən (Azərbaycan, rus və digər dillərdə), həyat və yaradıcılığı haqqında kitablardan (Azərbaycan rus və digər xarici dillərdə), ədibin sözlərinə yazılmış mahnılardan, haqqında çəkilmiş filmlərdən də bəhs edilir. “Sabir incəsənətdə” adlı bölmədə ədibin abidələri, rəssamlar tərəfindən çəkilmiş portretləri haqqında məlumat verilir. Bazada şairin ev-muzeyi haqqında materiallar da təqdim olunub.

Elektron məlumat bazası ilə Gənclər Kitabxanasının saytında tanış olmaq olar.

# Alman alimin Şuşanın tarixi və mədəni irsi haqqında kitabı işıq üzü görüb

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində (QMKİDK) Almaniyanın Qiesen Universitetinin dosenti, türkoloq alim Mixael Reynhard Hessin “Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu” adlı kitabının təqdimatı keçirilib.

QMKİDK-nin mətbuat xidmətindən bildirilib ki, təqdimatda kitabın əcnəbi müəllif tərəfindən Şuşa haqqında xarici dildə və ölkədən kənarda çap olunmuş ilk elmi fundamental monoqrafiya olduğu diqqətə çatdırılıb. M.Hessin Azərbaycanın ən yaxın dostu olduğu, dilimizi, ədəbiyyatımızı, mədəniyyətimizi, tariximizi böyük həvəslə öyrəndiyi və təbliğ etdiyi vurğulanıb.

M.Hess qeyd edib ki, kitabı yazmaqda məqsədi Qarabağın və Şuşanın Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixindəki zəngin irsini gərbli oxuculara çatdırmaqdır. Alim apardığı araşdırmalara verdiyi dəstəyə görə ölkəmizin müvafiq qurumlarından və elmi dairələrindən razılıq ifadə edib.

Xarici İşlər Nazirliyinin nümayəndəsi Rizvan Nəbiyev alman alimin bu günədək Azərbaycanla bağlı olan fəaliyyəti, həmçinin bu ilin əvvəllərində çapdan çıxmış Şuşa haqqında kitabı barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, M.Hess Şuşanın yalnız beynəlxalq hüquqa görə və siyasi-tarixi baxımdan deyil, həm də misilsiz ədəbi, mədəni və etnoqrafik irsinə görə Azərbaycan xalqına məxsus olduğunu kitabda təkzibolunmaz dəlil və sübutlarla göstərə bilib.



Şuşalı ziyalılardan Yunis Hüseynov, Vasif Quliyev, komitə yanında İctimai Şuranın sədri Anar Xəlilov və başqaları tədbirdə çıxış edərək kitabı yüksək qiymətləndirib, alimə gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Təqdimat başa çatdıqdan sonra Dövlət Komitəsinin sədri Rövşən Rzayev və Mixael Hess Şuşadan məcburi köçkün, əslən alman olan 80 yaşlı xanım İrma Veberlə görüşüblər. İkinci Dünya müharibəsinə qədər Rusiyada Volqaboyu ərazidə yaşamış alman ailələrdən biri kimi Veberlər 1941-ci ildə deportasiyaya məruz qalaraq, Sibirə köçürülüblər. İrma xanımın dul qalmış anası burada əslən Şuşadan olan azərbaycanlı bir şəxslə yenidən ailə qurub. Həmin izdivacdan bir oğlan və bir qız dünyaya gəlib. Sonra ailə Şuşa şəhərinə köçüb. İrma xanım da burada 4 nömrəli məktəbdə işləyib, 1992-ci ildə isə Şuşadan məcburi köçkün olaraq Bakı şəhərinə pənah gətirib. M.Hess şuşalı alman xanımın həyat hekayəsini maraqla dinləyib, onunla səmimi söhbət edib. Daha sonra ona “Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu” kitabını imzalayaraq ona hədiyyə edib.

M.Hess Bakıda məcburi köçkün ailəsinin toyunda iştirak edib, Azərbaycan adət-ənənəsi ilə bir daha yaxından tanış olub.

Xatırladaq ki, “Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu” kitabı Mixael Reynhard Hessin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı qələmə aldığı sayca üçüncü kitabıdır. Onun Azərbaycanın obyektiv mövqeyini əks etdirən “Tanklar cənnətdə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi” kitabı 2016-cı ildə alman dilində Berlində, “Qarabağ XIII əsrdən 1920-ci ilədək. Azərbaycan tarixinin açılımı” kitabı isə 2020-ci ildə ingilis dilində Münxendə çap edilib.

# Görkəmli publisist və salnaməçi Qulam Məmmədlinin 125 illiyi qeyd edilib

İyulun 4-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda “Qulam Məmmədlinin yaradıcılığında Cənubi Azərbaycan mövzusu” adlı elmi sessiya keçirilib.

Elmi sessiya görkəmli publisist, teatrşünas, salnaməçi Qulam Məmmədlinin 125 illik yubileyinə həsr olunub.

Tədbiri AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva açaraq Qulam Məmmədlinin Azərbaycan mədəniyyətində böyük xidmətləri olduğunu deyib. Qeyd olunub ki, milli teatr tarixinin nadir bilicilərindən olan Qulam Məmmədli bu sahədə salnaməçilik ənənəsini yaradıb.

Elmi sessiyada Qulam Məmmədliyə həsr olunmuş film nümayiş etdirilib.




Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin baş elmi işçisi, tarix üzrə elmlər doktoru Solmaz Rüstəmova-Tohidi “Qulam Məmmədli Azərbaycanın görkəmli ictimai-siyasi və mədəni xadimi kimi” mövzusunda məruzə edib. Məruzədə Qulam Məmmədlinin həyat və fəaliyyəti, yaradıcılığı, Azərbaycan teatr sənətinin inkişafına gördüyü işlər haqqında ətraflı söhbət açılıb.

AMEA-nın Əlyazmalar İnstitutu Türkdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aybəniz Rəhimova Qulam Məmmədlinin təzkirəsi, Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yeganə Hacıyeva görkəmli publisistin əsərlərində Cənubi Azərbaycan tarixi məsələləri haqqında çıxış ediblər.

Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Günay Verdiyevanın Qulam Məmmədlinin Cənubi Azərbaycan ədəbiyyatında ədəbi axtarışları, filologiya üzrə fəlsəfə doktoru Şəmsi Əhmədov Qulam Məmmədlinin “Azərbaycan” dərgisində çap olunmuş iki məqaləsi barədə məruzələri də dinlənilib.

Məruzələr ətrafında müzakirələr aparılıb.

# Vətənə sevgi və sədaqət dərsləri...

XX əsrin əvvəllərində xalqın maariflənməsi yolunda böyük xidmətləri olan vətənpərvər ziyalı naslin görkəmli nümayəndələrindən biri şair, nasir, tərcüməçi, həkim Abbas Səhhət olub. Ədibin “Əhmədin qeyrəti” poeması, uşaqlar üçün yazdığı “Cücələrim”, “Qaranquş balaları”, “Vətən”, “Yaz”, “Quşlar”, “Ayı və şir” kimi şeirləri, eləcə də dünya ədəbiyyatından etdiyi tərcümələr bu gün də oxucular tərəfindən maraqla qarşılanır.

Abbas Əliabbas oğlu Mehdizadə (Abbas Səhhət) 1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini molla məktəbində alır, sonra mədrəsədə oxuyur. Ərəb, fars və rus dillərini öyrənir. Ali təhsil ardınca İrana gedir. Tehran Universitetinin Tibb fakültəsinə qəbul olunur. Burada fransız dilini də öyrənir. 1900-cü ildə təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra Parisdə xəstəxanaların birində tibbi təcrübə keçir.

Tanınmış tədqiqatçı Salman Mümtaz araşdırmasında yazır: “Səhhət Nasiriyyə mədrəsəsinin klinikasında işlədiyi vaxt Hülaku nəslindən olan bir cavan xan gözlərini müalicə etdirmək üçün ora gəlir. Sonra həmin cavan xan Parisə getməli olur. Orada gözlərinə qulluq eləmək üçün bir nəfərə ehtiyac duyur. Professor Mirzə Abdullanın mərufluğu ilə həmin xan Səhhəti özü ilə Parisə aparır. Xan orada bir il müalicə olur. A.Səhhət də Paris xəstəxanalarının birində təcrübə keçir. Xanın müalicəsi başa çatdıqdan sonra hər ikisi İrana qayıdır”.

1901-ci ildə Şamaxıya qayıdan Abbas Səhhət peşəsi üzrə xalqa xidmət etməyə çalışır. Çar hökuməti isə onun İran mənşəli tibb diplomunu etibarlı hesab etmir. Bütün bunlara baxmayaraq o, yenə də bu sahədəki bilikləri ilə insanlara xidmət göstərir. Şairin dostu, pedaqoq Cəmo Cəbrayılbəyli xatirələrində Səhhətin çox insanpərvər olduğunu qeyd edir: “Kim olursa-olsun, dərhal xəstə üstünə gedir, müalicə edir, təsəlli və ümid verirdi. Çox zaman öz pulu ilə dərman alar və yaxud evindən gətirərdi...”.

Müntəzəm ədəbi yaradıcılığı fəaliyyəti göstərən şair dövri mətbuatla da sıx təmasda olur. İlk şeiri 1904-cü ildə “Şərqi-Rus” qəzetində dərc edilir. 1905-ci ildə isə “Yeni poeziya necə olmalıdır?” adlı məqaləsi, daha sonra “Poetik nitq”, “Azadlığa mədhiyyə”, “Oyanışın səsi” şeirləri mətbuatda işıq üzü görür. Gündən-günə ədəbi aləmdə tanınan və sevilən şair “Yeni üslublu məktəblər” ideyasının tərəfdarı kimi çıxış edir.



Bədii yaradıcılığı Əli bəy Hüseynzadənin öncüllüyündə formalaşan romantizm ədəbi cərəyanı istiqamətinə yön alır. Bakıda nəşr olunan bir çox jurnal və qəzetlərdə mütəmadi olaraq əsərləri işıq üzü görür. Eyni zamanda qələmini tərcüməçilik sahəsində də sınayır. Rus, fransız şair və yazıçılarından M.Lermontov, A.Puşkin, İ.Krılov, M.Qorki, V.Hüqonun əsərlərini Azərbaycan dilinə tərcümə edir.

Şairin 1912-ci ildə şeirlərindən ibarət “Sınıq saz” və Avropa şairlərindən tərcümə etdiyi “Məğrib (qərb) günəşləri” adlı şeirlər toplusu işıq üzü görür. Bir qədər sonra “Əhmədin şücaəti” adlı poeması, 1916-cı ildə isə “Şair, muza və şəhərli” romantik poeması nəşr olunur.

A.Səhhət bədii yaradıcılığında Nizami Gəncəvi, Sədi Şirazidən daha çox təsirlənib. O, xüsusilə Tofiq Fikrət yaradıcılığına rəğbət bəsləyib. Şair Azərbaycanda liberal burjuaziya ideyasını müdafiə edib. İslam dəyərlərindən imtinaya qəti etirazını bildirib. Əsərlərində “ümummüsəlman qərbçiliyi” ideyasının tərəfdarı olduğunu göstərib.

Abbas Səhhətin yaradıcılığında vətən mövzusu xüsusi yer tutur. Şairin “Vətən” şeiri bu mənada diqqətəlayiq nümunələrdəndir. Müəllif Vətənin müqəddəsliyini əcdadlarımızın orada dəfn olunması, övladlarımızın yaşadığı məkan kimi dəyərindən göstərib.

*Vətən əcdadımızın mədfənidir,*
*Vətən övladımızın məskənidir...*

Abbas Səhhət şeirdə Vətəni ana ilə müqayisə edir. Vətən onu sinəsi üstə böyütdüyü kimi, o da Vətəni gözləri üstə saxlayacağını deyir: “Ölərəm əldən əgər getsə Vətən”. Şair şeirin sonunda daha qəti hökm verir:

*Vətəni sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz.*

Vətənpərvər şair ana dilində danışanlara yuxarıdan baxan və yaxud bu dildə danışmağa utananları “Müsəlman ürəfaları” adlı şeirində tənqid edir:

*Yeri düşsə əgər müsəlmandır,*
*Vaxt olur ya İvan, ya Vartandır.*
*O nə bundan, düzü, nə ondandır,*
*Yeni bir şey, əcaib insandır.*

*Geyinir “en qrand”, gəzir “ala-şiq”,*
*Başda bir şapka, əldə bir zontik.*
*Rus, firəng ləhcəsi deyir “bon”dur,*
*Türk dilini sevməyir: “moveton”dur.*

Abbas Səhhət bütün fəaliyyətində Vətənə və millətə sədaqət nümunəsi göstərib, maarif və mədəniyyətin inkişafı, gənc nəsillərdə milli ruhun oyanması, vətənpərvərlik tərbiyəsinin yüksəlməsi və dünyagörüşünün genişlənməsi üçün daim çalışıb. Dövrün mətbuat orqanlarından “Şərqi-Rus”, “Həyat”, “İrşad” “Füyuzat”, “Dəbistan”, “Rəhbər”, “Zənbur”, “Məlumat”, “Yeni irşad”, “Tərəqqi”, “Kəlniyyət”, “Məktəb”, “Molla Nəsrəddin”, “İqbal”, “Yeni iqbal”, “Son xəbər”, “Bəsirət”, “Yeni məktəb”, “Qurtuluş”, “Açıq söz” və digər qəzet və jurnallarda yorulmadan çıxışlar edib.

Şair, nasir və tərcüməçi Abbas Səhhət 11 iyul 1918-ci ildə Gəncə şəhərində dünyasını dəyişib.

**Savalan Fərəcov**

# “Mərasim folkloru məsələləri” çapdan çıxıb

AMEA Folklor İnstitutu Mərasim folkloru şöbəsinin hazırladığı “Mərasim folkloru məsələləri” kitabının birinci cildi işıq üzü görüb.

Kitabda şöbə əməkdaşlarının mərasim folkloru üzrə araşdırmaları ilə bağlı məqalələri yer alıb. Məqalələrdə mərasim folklorunun müxtəlif problemləri tədqiqata cəlb edilib.

“Elm və təhsil” nəşriyyatında çapdan çıxan kitabın redaktoru şöbənin müdiri Ağaverdi Xəlil, tərtibçisi Süreyya Əlizadə, rəyçiləri Vəfa İbrahim və Atif İslamzadədir.

Kitabdan humanitar elm sahəsinin mütəxəssisləri, alimlər, müəllimlər və tələbələr faydalana bilərlər.

# "Mədəni gənclik" layihəsinə yekun vuruldu

Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Mədəni gənclik" layihəsi başa çatıb.





Bu münasibətlə iyulun 1-də Bakı Dövlət Universitetində (BDU) mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və universitetin rektoru Elçin Babayevin tələbələrlə görüşü keçirildi.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxışında dedi ki, hər bir gəncin uğurlu olması üçün özünü tanıması vacibdir: "Sizlər BDU-da təhsil alaraq öz düşüncə qabiliyyətinizi aşkarlayırsınız. Peşəkar dünyada ən vacib tələb olunan keyfiyyət düşüncə tərzidir. Artıq elə bir dövrdəyik ki, məlumatlı olmaq üstünlük təşkil etmir. Yəni dünyanın hər hansı bir yerində nə isə icad olunursa, dərhal qlobal səviyyədə məlum olur. Bu dövrdə əsas üstünlük öz unikal düşüncə qabiliyyəti ilə bəlli olan məlumatları, faktları fərqli cür təqdim etməkdir. Məsələn, bir azərbaycanlı və amerikalı eyni faktı oxuyub fərqli cür nəticəyə gələ bilərlər. Bu fərqlilik isə mədəniyyətdən irəli gəlir. Burada da kim daha zəngin mədəniyyətə sahibdirsə, o üstünlük qazanır. Bildiyiniz kimi, dünyanın bəlli bir coğrafi xəritəsi var. Biz düşünürük ki, göstəricilər üzərində işləyərək dünyanın mədəniyyət xəritəsini tərtib edək. Bu xəritə coğrafi xəritə ilə üst-üstə düşməyəcək. Bu xəritə millətin, xalqın dünya mədəniyyət tarixində oynadığı rola, verdiyi töhfəyə əsaslanacaq. Düşünürəm ki, bu xəritədə biz böyük ölkələrdən biri olacağıq. "Mədəni gənclik" layihəmizin əsas məqsədlərindən biri də odur ki, gənclərimiz Azərbaycanın həmin mədəniyyət xəritəsini görə bilsinlər".

Daha sonra Elnur Əliyev tələbələrin layihə haqqında təkliflərini dinlədi, onları maraqlandıran sualları cavablandırdı.

Bu cür layihələrinin davamlı olmasını arzulayan BDU-nun rektoru Elçin Babayev "Mədəni gənclik" layihəsinin təşkilinə görə Mədəniyyət Nazirliyinə, layihədə iştirak edən tələbələrə və universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinə təşəkkürünü bildirdi.

Tədbirin sonunda tələbələr arasında layihə üzrə keçirilən sorğunun (ən çox bəyənilən tamaşa, artist və s.) nəticələri elan olundu. Layihədə fəal iştirak edən tələbələrə sertifikatlar təqdim edildi.

Qeyd edək ki, bu ilin may ayından həyata keçirilən "Mədəni gənclik" layihəsinin məqsədi gənclərin incəsənətə marağının artırılması, onların ölkənin mədəni proseslərinə cəlb edilməsi, Azərbaycan gənci və mədəniyyətimiz arasında körpü salmaq, mədəni dəyərlərimizə sahib çıxacaq nəslin yetişdirilməsinə töhfə verməkdir. İki ay davam edən layihəyə BDU-dan 300 nəfər könüllü tələbə qatılıb. Tələbələr 5 mədəniyyət ocağında – Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Akademik Opera və Balet, Azərbaycan Dövlət Akademik Musiqili, Azərbaycan Dövlət Akademik Rus Dram teatrlarında və Azərbaycan Dövlət Akademik Filarmoniyasında tamaşa və konsertlərə baxmaq imkanı əldə ediblər.

**Nurəddin**

# AMEA-da Firəngiz Əlizadənin yubileyinə həsr olunmuş elmi sessiya

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin 75 illiyi münasibətilə iyulun 1-də AMEA Humanitar Elmlər Bölməsi və Memarlıq və İncəsənət İnstitutunun birgə təşkilatçılığı ilə elmi sessiya keçirilib.



Tədbirdə əvvəlcə bəstəkarın həyat və yaradıcılığından bəhs edən "Firəngiz Əlizadənin yaradıcılıq səhifələri" adlı sənədli film nümayiş olunub. Filmdə bəstəkarın əsərlərinin məşhur orkestrlər, musiqiçilər tərəfindən ifası, elm və incəsənət xadimlərinin F.Əlizadə haqqında söylədikləri fikirlər yer alıb. Bəstəkarın "Habilsayağı", "Dərviş", gitara üçün "Fantaziya", "Muğamsayağı", "Nağıllar", "Dəniz", "İthaf", "Nasimi Passion" əsərlərindən, "İntizar" operasından parçalar təqdim olunub. Bu əsərlər Niderlandda – "Amsterdam Royal Concertgebouw" zalında, Almaniya, İsveçrə, Fransa, Portuqaliya, Argentina və digər ölkələrdə səslənib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək yubilyarın yaradıcılığından söz açıb. Bildirib ki, Firəngiz Əlizadə türk-müsəlman dünyasının Avropanı fəth etmiş ən dəyərli bəstəkarlarından biridir. Görkəmli bəstəkar Azərbaycan motivini və fəlsəfəsini Qərb musiqisinin dili ilə dünya ictimaiyyətinə çatdırır. Firəngiz Əlizadənin yaradıcılığını Azərbaycanla dünya musiqisi arasında mənəvi körpüyə bənzədən akademik bu mənada bəstəkarın fəaliyyətinin dünyəvi əhəmiyyətə malik olduğunu qeyd edib.

Akademik İsa Həbibbəyli Firəngiz Əlizadənin eyni zamanda Azərbaycan musiqişünaslıq elmini zənginləşdirən dəyərli ziyalı olduğunu vurğulayıb, ona möhkəm cansağlığı, uzun ömür və yeni yaradıcılıq nailiyyətləri arzu edib.

Yubiley tədbirində AMEA-nın müxbir üzvü Rəna Məmmədovanın "Azərbaycan xalqının görkəmli bəstəkarı", professor Həcər Babayevanın "Firəngiz Əlizadə və azərbaycançılıq", sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülarə Vəzirovanın "Firəngiz Əlizadənin yaradıcılığının əsas mərhələləri" və sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamovanın "Firəngiz Əlizadənin balet musiqisi" mövzusunda məruzələri dinlənilib.

Diqqətə çatdırılıb ki, Firəngiz Əlizadə görkəmli bəstəkar və musiqişünas olmaqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, hər zaman gənc bəstəkarlara diqqət və qayğı göstərir. Firəngiz xanımın yaradıcılığı yalnız ifaçılarımız üçün deyil, musiqi elmimiz üçün də dəyərli mənbədir.

Elmi sessiyada AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Memarlıq və İncəsənət İnstitutunun baş direktoru Ərtegin Salamzadə, görkəmli musiqişünas, akademik Zemfira Səfərova çıxış edərək yubilyarın ömür salnaməsindən, zəngin yaradıcılıq fəaliyyətindən, Azərbaycan mədəniyyətinə verdiyi dəyərli töhfələrdən söz açıblar.

Sonda Firəngiz Əlizadə çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür edib, Azərbaycan musiqisinin təbliği naminə bundan sonra da əzmlə çalışacağını vurğulayıb.

**Fidan Nəsirova**
**BMA-nın Elmi-tədqiqat laboratoriyasının elmi işçisi**

## Xatirə təqvimi — 6–8 iyul

### Azərbaycan

**6 iyul 1918** – Yazıçı-tərcüməçi Şəfiqə Əli qızı Ağayeva (1918-1983) Ağdamda anadan olub. Azərbaycan uşaq ədəbiyyatının inkişafına töhfələr verib. Rus yazıçılarının uşaq və yeniyetmələr üçün hekayə və povestlərini dilimizə tərcümə edib.

**6 iyul 1947** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Xanlar Daşdəmir oğlu Cəfərov (1947-2016) anadan olub.

**7 iyul 1920** – Azərbaycan İnqilab Komitəsi incəsənət abidələri və əsərlərinin siyahıyaalınması və mühafizəsi haqqında qərar qəbul edib.

**7 iyul 1939** – Yazıçı, tədqiqatçı-alim, professor Elmira Nəzər qızı Zamanova (1939-2010) Göyçay şəhərində anadan olub. Rus və Azərbaycan dillərində elmi-fantastik əsərlərin müəllifidir: "Yeraltı dünya", "Vaxtdır, qardaşım" və s.

**7 iyul 1950** – Əməkdar mədəniyyət işçisi Həsən Nəsib oğlu Həsənov (1950 – 6.4.2021) Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olub. Müxtəlif teatrlarda (İrəvan, Mingəçevir teatrları, Dövlət Gənclər Teatrı) direktor işləyib.

**7 iyul 1961** – Əməkdar artist, aktyor, rejissor Ələkbər Adıgözəl oğlu Hüseynov (1961 – 2.8.2007) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru işləyib. Televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

**7 iyul 2019** – UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında Şəki şəhərinin tarixi hissəsi Şəki Xan sarayı ilə birlikdə UNESCO-nun Dünya irs siyahısına daxil edilib.

**8 iyul 1888** – Xalq artisti Pyotr Pavloviç Jarikov (1888-1969) Moskvada anadan olub. Azərbaycan Dövlət Rus Dram Teatrında aktyor və rejissor kimi fəaliyyət (1928-1963) göstərib.

**8 iyul 1909** – Məşhur dilçi alim, akademik, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə (1909 – 10.4. 1979) Şəkidə doğulub. Müasir Azərbaycan dilinin fonetikasına, etimologiyasına və ümumi dilçiliyə aid əsərlərin müəllifidir.

**8 iyul 1931** – Xalq artisti Zülfüqar Yaqub oğlu Baratzadə (1931 – 11.2.1991) Gəncədə doğulub. 1949-cu ildən Gəncə Dövlət Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

### Dünya

**6 iyul 1859** – İsveç şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1916) Karl Qustav Verner fon Heydenstam (Carl Gustaf Verner von Heidenstam; 1859-1940) anadan olub. Əsərləri: "Endimion", "XII Karlın döyüşçüləri" və s.

**6 iyul 1887** – Yəhudi əsilli rus-fransız rəssamı Mark Zaxaroviç Şaqal (Xaskeleviç; 1887-1985) anadan olub. Rəngkarlıq və qrafika əsərləri ilə bədii avanqardın ən tanınmış simalarından biridir.

**7 iyul 1860** – Avstriya bəstəkarı Qustav Maler (Gustav Mahler; 1860-1911) anadan olub.

**7 iyul 1882** – Belarus ədəbiyyatının banilərindən şair Yanka Kupala (əsl adı İvan Dmitriyeviç Luseviç; 1882-1942) anadan olub.

**7 iyul 1884** – Yəhudi əsilli alman yazıçısı Lion Feyxtvanger (Lion Feuchtwanger; 1884-1958) anadan olub. "Qoyya", "İspan balladası", "Lautenzak qardaşları" və s. tarixi romanların müəllifidir.

**7 iyul 1901** – İtalyan aktyoru, kinorejissor, 4 dəfə "Oskar" mükafatı laureatı Vittorio De Sika (Vittorio De Sica; 1901-1974) anadan olub. Filmləri: "Günəbaxanlar", "Dünən, bu gün, sabah", "İtalyansayağı nikah" və s.

**8 iyul 1621** – Fransız şairi, məşhur təmsillər müəllifi Jan de Lafonten (Jean de La Fontaine; 1621-1695) anadan olub. Antik dövr müəlliflərinin (Ezop, Fedr və s.) əsərlərindən yararlanaraq təmsil janrını yaradıb.

**8 iyul 1892** – İngilis yazıçısı Riçard Oldinqton (Richard Aldington; 1892-1962) anadan olub. Əsərləri: "Qəhrəmanın ölümü", "Bütün insanlar düşməndir" və s.

**8 iyul 1938** – Rusiyanın Xalq artisti, tanınmış aktyor Andrey Vasilyeviç Myaqkov (1938 – 18.2.2021) anadan olub. "Xoş təsadüf və ya həmişə təmizlikdə", "İşdə məhəbbət macərası", "Qaraj" və s. filmlərdə çəkilib.

**Hazırladı: Vüqar Orxan**

# Milli mətbuat tarixinin tədqiqinə töhfə

## ADA Universiteti "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatının nəşrini davam etdirir




1918-1920-ci illərdə çap olunmuş "Azərbaycan" qəzetinin tam külliyyatından III cildi latın qrafikasında nəşr edilib. Layihənin təşəbbüskarı ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevdir. ADA Universitetinin dəstəyi ilə nəşr edilən III cild 1918-ci ilin dekabr ayını əhatə edir.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin orqanı olan "Azərbaycan" qəzetində rast gəlinən xəbərlər o dövrün hadisələrinə dair ilkin mənbələrdir. Məsələn, III cilddə "Qarabağ əhvalı" (1918-ci il 5 dekabr, N 56) sərlövhəli yazıda oxuyuruq: "Ağdam Milli Komitəsindən və Ağdamda yaşayan Şuşa şəhəri sakinləri tərəfindən Azərbaycan Hökumətinə gələn teleqramlardan görünür ki, Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının dağbasar [dağətəyi] hissələrində toplanmış olan erməni üsyançıları tərəfindən müsəlman əhalisinə olmazın zülmlər edilir. Andranikin dəstəsi Şuşaya hücuma hazırlanır və əlyövm [halhazırda] Şuşanın 20 çağırımlıq (verst) bir məsafəsində "Müsəlmanlar" adlanan mövqedə vuruşma gedir. Yuxarıda adları yazılmış qəzaların erməniləri də Andranikin dəstəsinə qoşularaq əməliyyatda iştirak edirlər.

Bu hadisələr, əhalinin həyəcanına və işdən-gücdən qalmasına səbəb olurlar. Bunun üçün də Ağdam Milli Komitəsi teleqraflarla Hökumətə müraciət edərək buna qarşı təcili tədbirlər ittixazını [görülməsini] rica edir".

Qəzetin 1918-ci il 7 dekabr 58-ci nömrəsində dövrün qabaqcıl ziyalılarından biri olan Xəlil İbrahimin "Azərbaycan Parlamanı dəvəti münasibətilə" yazısı isə bu günün oxucusuna Cümhuriyyət hökumətinin demoratikliyindən xəbər verir: "Azərbaycan türkləri həmişə ağalıq, hakimlik üçün deyil, hüquqi-milliyyə və bəşəriyyənin təmini üçün çalışdıqlarını bir daha isbat edərək, Cümhuriyyətimiz daxilində yaşayan ümum vətəndaşlarımızı həyatımızın quruluşunda iştiraka dəvət etdilər. Azərbaycanda heç millət, heç sinif, heç silk [təbəqə] hakim ya məhkum ola bilməz. Hamı vətənin həm ağasıdır, həm nökəri. Hər bir vətəndaş gərək ümumi vətənin səadəti ilə məsud, ələmi ilə müəlləm olsun [kədərlənsin]".

Kitabı vərəqlədikcə 1918-ci ildə müxtəlif sahələr üzrə problemlər göz önündə canlanır. "Bakıda xalq məktəbi müdirlərinin yığıncağı" (16 dekabr, N66), "Maarif müfəttişlərinin yığıncağı" (18 dekabr, N67, 19 dekabr, N68) sərlövhəli yazılar dövrün təhsil problemləri haqqında oxucuda geniş təsəvvür yaradır. Pedaqoq, publisist Fərhad Ağazadənin "Bakıda neft ticarəti və onun müxtəsərcə tarixi" (1918, 5 dekabr, N56) məqaləsi isə müvafiq sahəyə dair dəyərli mənbədir.

"Türkiyədə qadınlıq məsələsi" (3 dekabr, N55) adlı məqalədə qadın hüquqları ilə yanaşı, övlad tərbiyəsinə də diqqət çəkilir: "Bir validənin ağuşunda böyüməkdə olan övladına qarşı məhəbbəti nə qədər çoxsa, tərbiyənin aldığı şəkil və cəsamətcə [böyüklüyə görə] o nisbətdə də vətəninə məhəbbət olar. Vətənin müşfiq validələri övladlarını hər tərəfdə qorumaq əsasına binaən [uyğun olaraq], hərb meydanlarına qədər gəlir: cəngavərlərin aldığı nişaneyiiftixarını – yarasını sarar, baxar, onu bir çocuğu qədər nəvazişi nəzərlərə qərq edər".

ADA Universitetinin rektoru Hafiz Paşayev kitaba ön sözdə yazır: "Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə, bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir".

Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib. Onlar transliterasiya zamanı mətnin orijinallığını qorumaqla yanaşı, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışıblar. Bu səbəbdən bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəlib. Məsələn, "çoq", "yoq", "etməgi", "kibi", "numero" kimi sözlərin müasir yazılışına (çox, yox, etməyi, kimi, nömrə) üstünlük verilib. Eyni zamanda "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunulmayıb. Bir tərəfdən, bu sözlər qəzetdə həmişə eyni cür yazılıb, digər tərəfdən də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etmək münasib görülməyib. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənasından məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğu mətnin işində kvadrat mötərizədə göstərilib. Qəzetin hər nömrəsindən sonra əlavə edilən "Qeyd və şərhlər"də oxucular üçün faydalı məlumatlar yer alır. Cildin sonunda "Adlar göstəricisi" verilib. Kitabı elektron formatda da əldə etmək mümkündür.

Xatırladaq ki, 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin tam külliyyatı 20 cilddə olacaq. Bundan öncə çapdan çıxan I cild 1918-ci ilin sentyabr-oktyabr aylarını, II cild 1918-ci ilin noyabr ayını əhatə edir.

# Folklorşünaslar Türkiyədə beynəlxalq konfransda iştirak ediblər

Türkiyənin Kayseri vilayətinin Dəvəli bölgəsində 30 iyun – 2 iyul tarixlərində keçirilən III Beynəlxalq Dəvəli Aşıq Seyrani və Türk Mədəniyyəti Konfransında AMEA Folklor İnstitutunun alimləri də iştirak ediblər.

Dəvəli şəhərindəki Mustafa Aksu Mədəniyyət Mərkəzində gerçəkləşən tədbirə müxtəlif türkdilli ölkələrdən 100-dən çox elm xadimi qatılıb.

Konfransda azərbaycanlı alimlər – professor Seyfəddin Rzasoy "XIX əsr aşıq şeirində "aşıq" xarakterinin semantik xüsusiyyətləri: Aşıq Seyrani və Aşıq Ələsgər", Əli Şamil "Orta Asiya türklüyü", dosent Qalib Sayılov "Aşıq şeirində ticarət anlayışları", dosent İlhamə Qəsəbova "Türk etnik-mədəni ənənəsində arxaik yas ənənələri", dosent Ləman Süleymanova "Xına mərasimlərinin keçmişi və bu günü", dosent Aynur İbrahimova "Bəxtiyar Vahabzadənin yaradıcılığında milli yaddaşdan gələn enerji: "Özümüzü kəsən qılınc" əsasında" və Məhsəti Süleymanova "Uşaqların təhsilində və inkişafında oyunların rolu" mövzularında məruzə ilə çıxış ediblər.

Tədbir çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Özbəkistana həsr olunmuş fotosərgisi də nümayiş olunub.

# Tbilisi Dövlət Konservatoriyasında “Nizaminin xatirəsinə”

İyulun 2-də Gürcüstan paytaxtında – Vano Saracişvili adına Tbilisi Dövlət Konservatoriyasının böyük zalında azərbaycanlı dirijor, Əməkdar artist Fuad İbrahimovun iştirakı ilə konsert keçirilib.



Musiqi gecəsində Fuad İbrahimovun dirijorluğu ilə Gia Kançeli adına Tbilisi Gənclər Orkestri və solistlər çıxış ediblər.

Proqramda Azərbaycanın dünya şöhrətli bəstəkarı Fikrət Əmirovun 1947-ci ildə yazdığı simli orkestr üçün “Nizaminin xatirəsinə” simfoniyası ifa olunub.

Konsertdə həmçinin Tbilisi Gənclər Orkestrinin direktoru Mixeil Mdinaradzenin “145/Xristos” əsərinin premyerası olub, bəstəkar Otar Qordelinin fleyta üçün konsertinosu (solist yunanıstanlı fleytaçı Statis Karapanos) səslənib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı Səfirliyinin əməkdaşları, azərbaycanlı iş adamları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan musiqiçilərinin Tbilisidə çıxış etməsi, eləcə də gürcü incəsənət ustalarının Bakıya dəvət olunması mədəni əlaqələrimizin inkişafında mühüm rol oynayır. Bu sözləri Tbilisi Gənclər Orkestrinin direktoru, bəstəkar Mixeil Mdinaradze söyləyib.

Fuad İbrahimovun dirijorluğu ilə keçən konsertin həm gürcü sənətsevərlər, həm də Tbilisidə yaşayan azərbaycanlılar tərəfindən maraqla qarşılandığını vurğulayan M.Mdinaradze konsertdə dahi bəstəkar Fikrət Əmirovun böyük mütəfəkkir Nizami Gəncəviyə həsr etdiyi simfonik musiqinin səslənməsinin də əlamətdar hadisə olduğunu bildirib: “Arzu edirəm ki, bu cür konsert tədbirləri, musiqili gecələr tez-tez təşkil olunsun. Azərbaycan musiqisini dinləmək hər zaman xoşdur”.

# TÜRKSOY-da qazax şairin yubileyi qeyd olunub




Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Ankaradakı katibliyində tanınmış qazax şairi Muxtar Şahanovun anadan olmasının 80 illiyi qeyd edilib.

Tədbirdə TÜRKSOY-un Baş katibi Sultan Raev, Türk Dil Qurumunun prezidenti Gürer Gülsevin, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Qazaxıstan, Azərbaycan və Qırğızıstanın Türkiyədəki səfirləri Yerkebulan Sapiyev, Rəşad Məmmədov, Kubaniçbek Ömuraliyev və digər qonaqlar iştirak ediblər.

Baş katib Sultan Raev tədbiri açaraq Muxtar Şahanovun təkcə müasir qazax ədəbiyyatının deyil, Türk dünyasının tanınmış şairi olduğunu vurğulayıb: “O həm də 11 il Qazaxıstanın Qırğızıstandakı səfiri kimi fəaliyyət göstərib, “Manas” dastanının bütün dünyada tanınmasına misilsiz töhfələr verib, Türk dünyası xalqları ilə daim yaxın əlaqələr saxlayıb. Muxtar Şahanovun 80 illik yubileyin TÜRKSOY-da qeyd etməkdən çox məmnunuq...”.

Sonra çıxış edən Muxtar Şahanov “Həyatım boyu həmişə doğru bildiyimi söyləmişəm. Ədəbiyyat sahəsində çoxlu mükafatlar almışam, amma bu barədə danışmağı sevmirəm. Otuzdan çox dilə tərcümə olunan əsərlərim hər gün mənim adımdan danışır” deyib.

Yubilyar şair tədbirin təşkilinə görə TÜRKSOY-un rəhbərliyinə, eləcə də bütün iştirakçılara təşəkkürünü bildirib.

Azərbaycan, Qazaxıstan və Qırğızıstanın Türkiyədəki səfirləri də çıxış edərək yubilyara təbriklərini çatdırıblar.

Sonra Sultan Raev TÜRKSOY-un ali təltifi olan “Qızıl medal”ı Muxtar Şahanova təqdim edib.

Tədbir Muxtar Şahanovun ədəbi irsinə həsr olunmuş konfransla davam edib. Sonra Kağan etnofolklor ansamblı və “Türküstan ulduzları” qrupu qısa konsert proqramı ilə çıxış edib.

**Mehparə Sultanova**
**Ankara**

# Azərbaycanlı ifaçıların Latviyada çıxışları

Əməkdar artist, tanınmış tenor Azər Rzazadə Latviyanın Riqa və Yelqava şəhərlərində keçirilən opera festivalında çıxış edib.





Vokalçı festival konsertlərində italyan bəstəkarları Cüzeppe Verdinin “Aida”, Cakomo Puççininin “Toska” və fransız bəstəkarı Jorj Bizenin “Karmen” operasından ariyaları məharətlə ifa edib. Onun çıxışı dinləyicilər tərəfindən alqışlarla qarşılanıb.

***

İstedadlı orqan ifaçısı Natəvan Quliyeva Azərbaycanın Latviyadakı Səfirliyinin dəstəyi ilə Liepayadakı “Müqəddəs Üçlük” kafedralında konsert verib. Azərbaycanlı musiqiçinin çıxışı Liepaya şəhərində keçirilən ənənəvi “Yay Orqan Konsertləri” çərçivəsində baş tutub.

Natəvan Quliyeva görkəmli Azərbaycan bəstəkarları Qara Qarayev, Nazim Əliverdibəyov, həmçinin tanınmış latviyalı bəstəkar Ayvars Kaleys və bir sıra dünya klassiklərinin orqan musiqi əsərlərini ifa edib.

# UNESCO “Borş kimindir” sualına nöqtə qoyub



Ukrayna borşu milli mətbəx və qeyri-maddi mədəni irs nümunəsi kimi UNESCO-nun qoruması altına alınıb.

Bu barədə qərar iyulun 1-də UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbədənkənar iclasında qəbul olunub. İclasda “Ukrayna borşunun hazırlanması mədəniyyəti” elementi UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Bu, eyni zamanda Rusiya ilə Ukrayna arasında uzun illərdən bəri davam edən “Borş kimindir?” mübahisəsinə UNESCO tərəfindən nöqtə qoyulması deməkdir.

UNESCO-nun bu qərarı Rusiya-Ukrayna müharibəsinin qızğın çağında verməsi onun həm də siyasi mahiyyətli olduğunu göstərir.

“Borş üçün mübarizə hələ müharibədən əvvəl başlamışdı. Rusiya rəsmiləri üçün “ekstremizmin və nasizmin təzahürü” olan borşumuz indi rəsmi olaraq Ukraynanındır və UNESCO-nun himayəsi altındadır”, – deyə Ukraynanın mədəniyyət və informasiya naziri Oleksandr Tıkaçenko bildirib.

Ukrayna naziri qeyd edib ki, bundan sonra dünyada heç bir restoran öz menyusunda “borş, rus şorbası” kimi yemək adı qeyd edə bilməz. “Amma biz borşu və onun reseptlərini bütün sivil ölkələrlə bölüşməkdən məmnun olacağıq”, – deyə o əlavə edib.

Bu arada Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova da borşun Ukrayna milli yeməyi kimi UNESCO-nun siyahısına salınmasına münasibət bildirib. O xatırladıb ki, borş haqqında ilk yazılı qeyd XVI əsrdə Dansiq (indiki Qdansk) şəhərindən olan alman əsilli tacir Martin Qruneveqə məxsusdur. M.Qruneveq 1584–1585-ci illərdə qələmə aldığı yol qeydlərində borşu “Kiyevin rus əhalisinin yeməyi” kimi təqdim edib.

“Borş bişirən bütün Ukrayna ailələri artıq dünya mədəni irsini yeyirlər. Arzu edən hər kəsi qonaq edə bilərik. Amma vermərik...” – bunu isə Ukrayna xarici işlər nazirinin müavini Emine Cabarova (Krım tatarı) deyib.

**V.Kamal**

# İtalyan kinosunun 95 yaşlı gözəli

İtaliyanın dünya şöhrətli aktrisası, ötən əsrin 50-ci illərində italyan kinosunun siması olmuş Cina Lollobricida iyulun 4-də 95 yaşını qeyd edib.



Əsl adı Luicina olan aktrisa Subiako şəhərində mebel ustası ailəsində doğulub. Ailədə ondan savayı daha üç qız uşağı vardı. Uşaqlığı dağların arasında yerləşən ucqar bir kənddə keçib. 1945-ci ildə ailəsi Roma ətrafına köçüb və Cina küçə rəssamı kimi ilk pulunu karikatura çəkməklə qazanıb. Həmçinin opera vokal dərsləri alır və teatr məktəbində oxuyurdu.

1946-cı ildə kinoda epizodik rolları ilə debüt edib. 1947-ci ildə “Miss İtaliya” gözəllik müsabiqəsində üçüncü yeri tutub.

1950-1951-ci illərdə aktrisa artıq Cina Lollobricida adı ilə italyan filmlərində baş rollara dəvət alıb. Ona dünya şöhrətini fransız kinorejissor Kristian Jakın “Fanfan zanbaq” filmindəki gözəl Adeline obrazı gətirib, tərəf-müqabil Jerar Filip olub. 1952-ci ildə onlar yenidən çəkiliş meydançasında – “Gecə gözəlləri” filmində görüşüblər.

Cina Lollobricida kino karyerasını 1973-cü ildə dayandırsa da, 90-cı illərədək rejissorların israrlı dəvətləri üzərinə ara-sıra yenə kinokamera önünə keçib. Ümumilikdə 60-dan çox filmdə çəkilib, onların yarıdan çoxu 1950-ci illərdə lentə alınıb. Aktrisanın ən diqqətçəkən rollarından biri də Jan Delannuanın rejissoru olduğu “Paris Notr-Dam kilsəsi”ndə (1956) Esmeralda obrazıdır.

70-ci illərdə çəkiliş meydançasından ayrıldıqdan sonra Lollobricida peşəkar fotoqraf olub, bir neçə albom buraxıb. Pol Nyuman, Salvador Dali və Fidel Kastro onun üçün poz veriblər və sonralar Cina onlar haqqında film çəkib. Aktrisa kinodan getdikdən sonra rəsm və heykəltəraşlıqla da məşğul olub. Həmçinin bir çox film festivallarında jüri üzvü və fəxri qonaq olub. Həmişə də zahiri görünüşü ilə diqqətləri özünə çəkib. Yaşının bu çağında da onu gözəllik və dəb üslubunun ikonası adlandırırlar.

Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

## 607 il əvvəl...

**6 iyul 1415-ci ildə** Avropanın məşhur mütəfəkkiri, Çexiya Reformasiyasının ideoloqu Yan Qus (1377-1415) tonqalda yandırılıb. Katolik kilsəsində islahatların tərəfdarı kimi çıxış edən və xalq kütlələrinin sevimlisinə çevrilən Y.Qus Vatikanın qəzəbinə tuş gəlmişdi. O, əvvəlcə zindana atıldı, katolik din rəhbərlərinin baxışlarını dəyişmək barədə tələbindən boyun qaçırdıqdan sonra isə barəsində ölüm qərarı çıxarıldı.

## 211 il əvvəl...



**5 iyul 1811-ci ildə** Venesuela Latın Amerikasındakı İspaniya müstəmləkələri içərisində birinci olaraq müstəqilliyini elan edib. Paytaxt Karakasda Simon Bolivar və Fransisk de Marandanın təşəbbüsü ilə çağırılan konqresdə ölkənin konstitusiyası hazırlanıb. Lakin ölkə gerçək müstəqilliyini əldə etmək üçün 15 il İspaniya hökmranlığına qarşı müharibə aparmalı oldu, 1830-cu ildə Venesuela Respublikası elan edildi.

## 123 il əvvəl...

**7 iyul 1899-cu ildə** ABŞ Havay adalarını işğal edib. Sakit okeandakı arxipelaq əvvəlcə İspaniyanın, sonra isə Britaniyanın nəzarətində olmuşdu. Havay adaları ştat statusu ilə ABŞ-a birləşdirildi.

## 101 il əvvəl...

**5 iyul 1921-ci ildə** Rusiya Kommunist (bolşevik) Partiyası Qafqaz Bürosunun iclasında Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində saxlanılması barədə qərar qəbul edilib. Bir gün öncə büroda erməni tərəfi Orconikidze və Kirovun dəstəyi ilə Dağlıq Qarabağın Ermənistana verilməsinə çalışsalar da, N.Nərimanov başda olmaqla Azərbaycanın kommunist rəhbərliyinin etirazı və RK(b)P MK-nın işə qarışması nəticəsində bunun qarşısı alınmışdı. Bununla belə, Qafqaz Bürosunun qərarında Dağlıq Qarabağa Azərbaycanın tərkibində vilayət muxtariyyəti verilməsi qeyd olunmuşdu.

## 99 il əvvəl...

**7 iyul 1923-cü ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi respublika ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) təşkil olunması barədə dekret verib. Sənəddə bu addımın azərbaycanlı və erməni xalqları arasında “beynəlmiləl həmrəyliyin möhkəmlənməsinə” xidmət edəcəyi vurğulanırdı. Dekret Rusiya K(b)P-nin Qafqaz Bürosunun iki il əvvəl qəbul etdiyi tövsiyə qərarına əsasən verilmişdi. Həmin qərarda muxtariyyətin mərkəzi Şuşa göstərilsə də, Azərbaycan MİK-nin dekretində vilayətin mərkəzi kimi Xankəndi qəsəbəsi seçilmişdi. DQMV bölgədə erməni separatçılığının və Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının hərbi münaqişəyə keçməsindən sonra, 1991-ci ilin 26 noyabrında Azərbaycan Ali Soveti tərəfindən ləğv edildi.

## 85 il əvvəl...

**7 iyul 1937-ci ildə** Yaponiya Çinlə müharibəyə başlayıb. 1936-cı ildə Mancuriyanı (Şimali Çin) işğal edən Yaponiyanın məqsədi Çini bütünlüklə özünə tabe etdirmək idi. Sayı 3 milyona çatan, lakin pis silahlanmış Çin qoşunları 400 minlik Yaponiya ordusuna məğlub oldu. Yalnız 1945-ci ilin yayında SSRİ qoşunları Yaponiyanın Çin ərazisindəki Kvantun ordusunu məğlub etdi və ölkə yapon hökmranlığından xilas oldu.

## 79 il əvvəl...



**5 iyul 1943-cü ildə** II Dünya müharibəsində həlledici mərhələlərdən olan Kursk döyüşü başlayıb. Hitler tərəfindən təsdiqlənən “Qala” adlı hücum planının icrasına faşistlərin elit qüvvələri, o cümlədən böyük tank qoşunları cəlb olunmuşdu. Avqustun 23-dək sürən döyüş almanların məğlubiyyəti ilə nəticələndi. Faşistlər 500 min nəfərədək canlı qüvvə itirmişdi.

## 47 il əvvəl...

**6 iyul 1975-ci ildə** Hind okeanındakı (Afrikanın şərqində) Qəmər adaları Federativ İslam Respublikası kimi müstəqilliyini elan edib. 2002-ci ildən Qəmər Adaları İttifaqı adlanır. Qəmər adaları XIX əsrin sonundan Fransanın nəzarətinə keçmişdi. Ərazisi 2,2 min kvadrat kilometr, 900 min nəfərə çatan (2010) əhalisinin əksəriyyəti (antaloatra xalqı) müsəlmandır.

## 44 il əvvəl...

**7 iyul 1978-ci ildə** Britaniyanın Okeaniyadakı müstəmləkəsi olan Solomon adaları müstəqillik əldə edib.

## 20 il əvvəl...

**5 iyul 2002-ci ildə** Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan dövlətinin xaricdəki soydaşlarla əlaqələrini tənzimləyəcək qurum – Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb. Prezident İlham Əliyevin 19 noyabr 2008-ci il tarixli fərmanı ilə qurum Diasporla İş üzrə Dövlət Komitəsinə çevrilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1917
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641